YENİ MÜSAVAT

www.musavat.com

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 19 sentyabr 2023-cü il Çərşənbə axşamı № 166 (8302) Qiyməti 60 qəpik

Xəbər

Azərbaycan Ermənistandan tələblərini açıqladı - diplomatik korpus məlumatlandırıldı

yazısı səh.3-də

BİR ADDIM QALDI: İRƏVAN YA BAKI DEYƏNİ İMZALAYACAQ, YA... İMZALAYACAQ!

Bölgədə Azərbaycan-Türkiyə tandemini yenəcək qüvvə yoxdur, olmayacaq; tədricən "tilov yemi"nə çevrilən Ermənistan Bakının şərtlərini qəbul etməsə, 29.7 min kv km-lik ərazidə də mövcud olmayacaq...



yazısı səh.8-də

Gündəm

Erməni rəvayətlərinə inanan "Sem dayı" - ABŞ niyə özünü "yandırdı"...



Bakıdan reaksiyalar: "Vaşinqton ABŞ formatlı danışıqların başlanmasını istəyirsə..."

yazısı səh.5-də

Aİ Laçın və Ağdam yollarından Xankəndinə yüklərin eyni vaxtda keçməsini alqışlayır

yazısı səh.5-də

Xuntaçıların baş tutmayan dirənişi - Azərbaycanın hədəflərinə doğru daha bir addım

yazısı səh.6-da

Bakıdan İrəvana son xəbərdarlıq - Zəngəzur dəhlizi ləngisə...

yazısı səh.7-də

Ailə qurmaq istəyənlər üçün daha bir müayinə

yazısı səh.14-də

Separatçılar silahları sülhməramlılara verib gedirlər - Rusiyanın növbəti blefi, yoxsa...

yazısı səh.4-də

Geomaqnit qasırğası başlayıb, bu gün daha da güclənəcək

yazısı səh.14-də

Naxçıvan Şəhər İcra Hakimiyyətində 5 milyon 311 min manatlıq mənimsəmə

yazısı səh.12-də

Karantin ehtimalı ciddiləşir - bu şəxslər yenidən risk altındadır!

yazısı səh.15-də

"SSRİ qanla bərpa ediləcək" iddiası - Putinin deputatını kim danışdırır?

yazısı səh.13-də

Dünyada ucuzlaşan ərzaq Azərbaycanda bahalaşır - səbəblər

Ekspertlər deyir ki, başlıca amil kəskin inhisarlaşmadır; söhbət həm idxal, həm topdan, həm də pərakəndə satışdan gedir; Rəqabət Məcəlləsi məsələni həll edəcəkmi...

yazısı səh.10-da



Əli Nağıyev


DTX rəisindən Ermənistana çağırış

yazısı səh.6-da



Məhkəmə Zurabişvilinin impiçmenti məsələsini nəzərdən keçirir

yazısı səh.2-də



Nə "beşli", nə də "şeşli" format, Ərdoğan formatı!

yazısı səh.9-da



Avropa İttifaqı Rusiyaya qarşı 12-ci sanksiya paketini hazırlayır

Avropa İttifaqı Rusiyaya qarşı 12-ci sanksiya paketi üzərində işləyir. Musavat.com "Bloomberg"ə istinadən xəbər verir ki, sanksiya paketinin oktyabrın birinci yarısında təqdim olunacağı gözlənilir.

Bu paketin bir hissəsi kimi bir qrup Avropa İttifaqı ölkəsi Rusiyanın nüvə sektoruna qarşı sanksiyaları təşviq etməyi planlaşdırır. Həmçinin 12-ci sanksiyalar paketinə Rusiya Federasiyasından almazların idxalına qadağa da daxil ola bilər. Aİ həmçinin Rusiyanın dondurulmuş aktivlərindən əldə edilən gəlirin Ukraynaya yardım üçün istifadə mexanizmini təklif edə bilər.

"Bloomberg"in məlumatına görə, Aİ-nin bir neçə ölkəsi Rusiyadan maye qaz və Rusiyanın İT sektoruna da məhdudiyyətlər qoymağa çağırır.



Ötən ay əhali restoranlara 186 mln. manatdan çox pul xərcləyib

2023-cü ilin avqust ayında Azərbaycanda əhali kafe və restoranlara 186 milyon 101 min manat vəsait xərcləyib.

"APA-Economics"in Dövlət Statistika Komitəsinin hesabatı əsasında apardığı hesablamalara görə, bu göstəricinin həcmi ötən ilin avqust ayı ilə müqayisədə 33.8% və ya 47 milyon 51 min manat çoxdur. 2022-ci ilin avqust ayında Azərbaycanda ictimai iaşə dövriyyəsi 139 milyon 49 min manat təşkil edib.

Xatırladaq ki, cari ilin avqust ayında Azərbaycanda əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri isə 919,4 milyon manat təşkil edib.

Əlavə edək ki, 2023-cü ilin yanvar-avqust aylarında ictimai iaşə dövriyyəsi 1 milyard 314,7 milyon manata bərabər olub.

Rusiya Barents/Avro-Arktika Şurasından çıxır

Rusiya Federasiyası Barents/Avro-Arktika Şurasından çıxır. APA-nın Moskva müxbiri xəbər verir ki, bu barədə Rusiya Xarici İşlər Nazirliyinin bəyanatında bildirilib.

Qeyd olunub ki, xarici işlər naziri Sergey Lavrovun Rusiyanın Barents/Avro-Arktika Şurasından çıxması ilə bağlı məktubu təşkilatın iştirakçılarına və katibliyinə və Cozeff Borrelə göndərilib.

Bəyanatda o da bildirilib ki, Rusiya Barents/Avro-Arktika Şurasından çıxdıqdan sonra şimalda tapşırıqları yerinə yetirməyə davam edəcək və əməkdaşlığa açıqdır.

Azay Quliyev: "Növbəti hədəfimiz qanunsuz hərbi birləşmələrin Qarabağdan çıxarılması və reinteqrasiyadır"



"Ağdam-Xankəndi və Laçın -Xankəndi yolu ilə Beynəlxalq Qırmızı Xaç Komitəsinə məxsus yük avtomobillərinin eyni vaxtda keçidinin təmin olunması tarixi hadisədir".

Bunu **millət vəkili Azay Quliyev** bildirib: "Xüsusilə Laçından keçən yükün ölkəmizin qanunvericiliyinə uyğun Laçın dövlət sərhəd-buraxılış məntəqəsində müvafiq gömrük yoxlamalarından sonra Xankəndinə buraxılması Azərbaycanın diktə etdiyi yeni reallığın, suveren hüquqlarımızın hamı tərəfindən bir daha etirafı və qəbuludur.

ABŞ, Fransa və bir çox bu kimi erməni yandaşlarının, o cümlədən Ermənistanın və onun Qarabağdakı oyuncaq xunta rejiminin uzun müddət davam edən əsassız müqavimətinə, pozuculuq fəaliyyətinə, ən müxtəlif səviyyələrdə edilən təzyiq və təhdidlərə baxmayaraq, Azərbaycan, Prezident İlham Əliyev bir addım da olsa milli maraqlarımızdan geri çəkilmədi və qarşıya qoyulan çox çətin bir vəzifənin öhdəsindən layiqincə gəldi.

Bundan sonra dünya erməniliyi, Menendez kimi korrupsioner siyasətçilər, Yura Kim kimi mövqeyini ilk təzyiqdə dəyişən qorxaq məmurlar və Avropa Parlamenti kimi "anti-Azərbaycan xor dərnəyi" "blokada", "soyqırımı", "humanitar fəlakət" kimi iyrənc yalanlarla Azərbaycanın üzərinə gələ bilməyəcəklər.

Növbəti hədəfimiz isə qanunsuz hərbi birləşmələrin Qarabağdan çıxarılması, orada yaşayan erməni sakinlərin siyahıya alınması və reinteqrasiya prosesini başlamaq üçün gərəkən digər addımların atılması olacaq".

❑ Musavat.com



Baydenin oğlu ABŞ Vergi İdarəsini məhkəməyə verdi

ABŞ Prezidenti Co Baydenin oğlu Hunter Bayden şəxsi həyatın toxunulmazlığı hüququnu pozduğuna görə ABŞ Vergi İdarəsini məhkəməyə verib. Musavat.com xəbər verir ki, bu barədə "Associated Press" məlumat yayıb.

Agentliyin yazdığına görə, Amerika prezidentinin oğlu hesab edir ki, ABŞ Vergi İdarəsinin iki əməkdaşı vergi məlumatlarını açıqlamaqla onun şəxsi həyatın toxunulmazlığı hüququnu pozublar. Hunterin iddiasında qeyd olunur ki, məlumat verənlərin federal müdafiəsi Konqres dinləmələri zamanı şəxsi vergi qeydlərinin açıqlanmasına imkan vermir.

Qeyd edək ki, Delaver ştatındakı böyük münsiflər heyəti ABŞ prokurorlarının Hunter Baydenə qarşı silahla bağlı 3 cinayətə görə irəli sürdüyü ittihamları təsdiqləyib. Bu ittihamlar sübuta yetirilərsə, Amerika prezidentinin oğlunu 25 ilə qədər həbs cəzası gözləyir.

❑ Musavat.com



Məhkəmə Zurabişvilinin impiçmenti məsələsini nəzərdən keçirir

Gürcüstanın Konstitusiya Məhkəməsi Prezident Salome Zurabişvilinin impiçmenti məsələsini nəzərdən keçirməyə başlayıb.

APA-nın Tiflis müxbiri xəbər verir ki, məlumatı Konstitusiya Məhkəməsi yayıb.

Bildirilib ki, iş baxılması üçün məhkəmənin Plenumuna təqdim edilib.

Qeyd olunub ki, işə 1 ay ərzində baxıldıqdan sonra məhkəmə rəyini parlamentə təqdim edəcək. Konstitusiya Məhkəməsinin rəyi müsbət olarsa, məsələ parlamentdə səsə qoyulacaq.

Qeyd edək ki, Gürcüstanda Prezidentin impiçmenti üçün parlamentin 150 deputatından minimum 100-nün dəstəyinə ehtiyac var. Hakim partiya isə parlamentdə cəmi 84 deputatla təmsil olunur. Müxalif partiyalar artıq impiçmentin əleyhinə olduqlarını bəyan ediblər.

Bakıda 20 yaşlı qız 2 həftədir itkin düşüb

Bakıda 20 yaşlı qız itkin düşüb. DİN-dən APA-ya verilən məlumata görə, Bakının Xəzər rayonu, Binə qəsəbəsi, Hövsan Südçülük Sovxozunda yaşayan ruhi əsəb xəstəliyindən əziyyət çəkən 2003-cü il təvəllüdlü Əzimova Əfsanə Comərd qızı sentyabrın 4-də yaşadığı evdən çıxaraq bir daha geri qayıtmayıb.

Evdən çıxarkən əynində açıq qəhvəyi paltar, ayağında qızılı rəngli idman ayaqqabısı olub.

Onun əlamətləri: - boyu 165 sm, dolu bədən quruluşlu, saçları qısa qara rəngli, gözləri qəhvəyidir.

Onun harada olması barədə məlumatı olan şəxslərdən DİN-in "102" Xidməti Zəng Mərkəzinə, Xəzər Rayon Polis İdarəsinə, o cümlədən 3-cü Polis Şöbəsinə 051-571-03-11, 055-211-81-74, 050-527-00-14, 012-590-73-02 və 012-456-03-02 nömrələrinə zəng edərək məlumat vermələri xahiş olunur.

YENİ MÜSAVAT
N 166 (8302) 19 sentyabr 2023

Azərbaycan Ermənistandan tələblərini açıqladı - diplomatik korpus məlumatlandırıldı

"Ermənistan silahlı qüvvələrinin şəxsi heyətinin dərhal çıxarılmasını, Ermənistana tabe qondarma rejimin hərbi və qondarma "hökumət" strukturlarının aradan qaldırılmasını və Azərbaycan ərazilərində qanunsuz yerləşdirilmiş Ermənistan silahlı qüvvələrinin tərk-silah edilməsini tələb edirik"

18 sentyabr 2023-cü il tarixində Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov və xarici işlər nazirinin muavini Fariz Rzayevin iştirakı ilə Xarici İşlər Nazirliyində Azərbaycan Respublikasında akkreditə olunmuş diplomatik korpus üçün brifinq keçirilib.





Bu barədə APA-ya XİN-dən xəbər verilib.

Brifinq zamanı aşağıdakı əsas məqamlar diqqətə çatdırılıb:

Azərbaycanın cəlb olunmuş beynəlxalq tərəfdaşlar vasitəsilə həyata keçirdiyi bütün səylərə baxmayaraq, Ermənistan və onun Azərbaycanın suveren ərazilərində qurduğu qondarma rejim normallaşma prosesinə xələl gətirməyə və gərginliyin azaldılmasına yönəlmiş bütün təklifləri rədd etməyə davam edir;

Əksinə, Azərbaycan qarşı tərəfin israrla davam etdirdiyi təxribatçı addımlarla üzləşir. Qarabağ bölgəsində qondarma "prezident seçkiləri" bunun bariz nümunəsidir. Azərbaycanın bütün mesajlarına baxmayaraq, Ermənistan tərəfi öz yolundan dönmədi;

Türkiyə, Pakistan, Ukrayna, Böyük Britaniya, Gürcüstan, Moldova, Rumıniya, Macarıstan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Almaniya, ABŞ, İran, habelə Birləşmiş Millətlər Təşkilatı, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və Avropa İttifaqı kimi beynəlxalq təşkilatlar bəyanat verərək qondarma və qanunsuz "seçkiləri" pisləyib, onun legitimliyini tanımayıb;

Fürsətdən istifadə edərək, beynəlxalq hüququ dəstəkləyən və Ermənistan tərəfinin bu qanunsuz, qeyri-legitim və təxribat xarakterli addımına qarşı açıq şəkildə çıxış edən bütün dövlətlərə və beynəlxalq təşkilatlara təşəkkür edirik;

Son bir neçə ay ərzində cəlb olunmuş bir sıra tərəfdaşlar, xüsusilə də Rusiya Federasiyası, ABŞ və Avropa İttifaqı vasitəsilə Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarından eyni zamanda istifadə etməklə erməni sakinlərə yüklərin çatdırılmasına yönəlmiş səylər davam etdirilib;

Heç bir istisna olmadan bütün tərəfdaşlar bütün diplomatik müzakirələr zamanı Laçından və Ağdamdan eyni zamanda keçidin mövcud vəziyyətin legitim və ağlabatan həll yolu olduğunu təsdiqləyiblər;

Qeyd etmək lazımdır ki, eyni zamanda keçid üçün çağırışlar ABŞ Dövlət Departamentinin, Rusiya XİN-in, Avropa İttifaqı Şurasının Prezidentinin mətbuat katibinin verdiyi bəyanatlarda, habelə ATƏT-in Daimi Şurasının 12 sentyabr tarixli görüşü zamanı çıxışlarda səsləndirilib;

12 sentyabr tarixində, uzun müddət davam edən müzakirələr və yubanmalardan sonra Rusiya Qızıl Xaç Cəmiyyətinin yük avtomobilinin Ağdamdan Xankəndinə keçidi təmin edilib. Bunun aylardır müzakirə olunan eyni zamanda keçidlərin həyata keçirilməsi üçün bir təkan olacağı ilə bağlı bütün cəlb olunmuş tərəflərin ortaq gözləntisi olsa da, bu ümidlər bir daha boşa çıxdı;

10 sentyabr tarixində, ABŞ və digər tərəfdaşlarla yüksək səviyyəli təmaslar zamanı Azərbaycan tərəfi Laçından keçid zamanı Azərbaycan Respublikasının milli sərhəd və gömrük nəzarət tələblərinin yerinə yetirilməsi ilə BQXK tərəfindən Laçın və Ağdamdan eyni zamanda keçid variantında sadiq olduğunu bir daha bildirib;

11 sentyabr tarixində, BQXK tərəfindən yüklərin daşınmasına dair müvafiq müraciətlər aldıqdan qısa müddət sonra, Azərbaycan tərəfi sözügedən yüklərin müraciətlərdə göstərildiyi kimi keçidinə şərait yaradılmasına hazır olduğunu bildirib və BQXK-dan eyni zamanda keçidin təşkil olunacağı tarix və vaxtın bildirilməsini sorğu edib. Buna cavab olaraq, BQXK Azərbaycan tərəfinə bildirib ki, erməni tərəfindən yüklərin qəbul edilməsi və BQXK konvoylarının təhlükəsizliyinin təmin edilməsinə dair "yaşıl işıq" yoxdur;

Azərbaycan cəlb olunmuş beynəlxalq tərəfdaşların müraciətlərini davamlı və xoş niyyətlə cavablandıraraq Laçın və Ağdamdan eyni zamanda keçid üçün müxtəlif variantları nəzərdən keçirsə də, Ermənistan tərəfi davamlı şəkildə razılaşmalardan geri çəkildi və yeni bəhanələr irəli sürdü;

Ermənistan tərəfinin sözügedən yolların açılmasına davamlı etirazı yalnız siyasi xarakter daşıyır və hər hansı "humanitar böhran" məsələsi ilə heç bir əlaqəsi yoxdur. Ermənistanın məqsədi Azərbaycan ərazisində separatizmi qızışdırmaq üçün alət və vasitələri qoruyub saxlamaqdır. Sıravi sakinlər isə bu siyasi avantüranın girovu kimi saxlanılır;

Bu xüsusda, ABŞ Senatında bu yaxınlarda keçirilən ictimai dinləmə erməni lobbisini razı salmaq üçün təşkil edilmiş şoudan savayı bir şey deyildi. Təəssüf ki, Dövlət Departamentinin nümayəndəsi də erməni lobbiçilərinin təşviq etdiyi birtərəfli anti-Azərbaycan bəyanatlarına qoşulub;

Gömrük nəzarəti tələbləri də daxil olmaqla, Azərbaycan qanunvericiliyinə riayət etməklə Laçın və Ağdam yollarından eyni zamanda keçid məsələsi artıq bir neçə həftədir ki, ABŞ tərəfi ilə müxtəlif səviyyələrdə müzakirə edilib. Bu səbəbdən, indiki çıxılmaz vəziyyətin səbəbi ABŞ tərəfi üçün aydındır. Buna baxmayaraq, ABŞ Senatında verilən ifadə saxta erməni fikirlərini təkrarlayıb;

15 iyul tarixində liderlərin Brüssel görüşündə və 1 sentyabr tarixində Azərbaycan Respublikası Prezidenti ilə ABŞ Dövlət Katibi arasında telefon danışığında müzakirə edildiyi kimi, Azərbaycan həmişə hər iki yolun ardıcıl və paralel istifadəsini asanlaşdırmağa hazır olub. Lakin bir neçə aydır ki, erməni tərəfinin həllə biganəliyi, humanitar yardımın davamlı siyasiləşdirilməsi, separatizm və ayrılmaya rəvac verməsi səbəbindən baş tutmayıb. Digər səbəb isə Azərbaycanı tamamilə əsassız olan qondarma humanitar böhran yaratmaqda ittiham etmək idi. Təəssüf ki, bəzi ölkələrin siyasi dairələrinin bəzi üzvləri özlərini bu saxta ittihamlarla əlaqələndiriblər.

Dünən, sentyabrın 17-də Ermənistan tərəfinin Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarından paralel keçidlə malların qəbuluna razılıq verməsinə dair BQXK-dan ilkin məlumat aldıq. Bu gün BQXK-nın keçidlə bağlı şifahi notasını aldıqdan sonra saat 7-də biz BQXK-nın iki avtomobilinin biri Ağdam-Xankəndi, digəri isə Laçın-Xankəndi yolu ilə eyni vaxtda keçidini təşkil edə bildik ki, bu da Azərbaycana qarşı "blokada" ittihamlarının heç bir əsası olmadığını nümayiş etdirdi.

Eyni zamanda yüklərin çatdırılması məsələsi Ermənistanın Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü hədəf alan hərbi və siyasi təxribatlarının artması hallarından təcrid olunmayıb;

10 min nəfərdən çox erməni silahlı qüvvələri qanunsuz olaraq Azərbaycan Respublikasının ərazisində yerləşməkdə davam edir. Yüzdən çox tank və digər zirehli texnika, yaylım atəşli raket sistemləri də daxil olmaqla, iki yüzdən çox ağır artilleriya qurğusu, onlarla müxtəlif radio-elektron mübarizə sistemi və iki yüzdən çox minaatan sistem hazırda Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində yerləşdirilib;

Ermənistan öhdəliklərinə zidd olaraq bu qüvvələri texniki, hərbi, logistik və maliyyə dəstəyi ilə təmin edir. Azərbaycan ərazisindəki silahlı birləşmələr birbaşa Ermənistanın dövlət büdcəsindən maliyyələşdirilir. Ermənistan 4-cü bəndində erməni silahlı qüvvələrinin Rusiya Federasiyasının sülhməramlı kontingentinin yerləşdirilməsinə paralel olaraq çıxarılması tələbinin açıq şəkildə ifadə olunduğu 10 noyabr 2020-ci il Üçtərəfli Bəyanatını nümayişkaranə şəkildə pozur;

Azərbaycanın suveren ərazilərində qeyri-qanuni yerləşdirilmiş radio-elektron mübarizə sistemlərindən istifadə xüsusi narahatlıq doğurur. 13 iyul, 24 iyul, 27 iyul, 21 avqust, 1 sentyabr tarixləri də daxil olmaqla, son bir neçə ay ərzində, Azərbaycan Hava Yollarının mülki təyyarələri ilə yanaşı, xarici dövlətlərin mülki təyyarələri də radio-elektron müdaxiləyə məruz qalıb. Bu müdaxilələr insanların və hava hərəkətinin təhlükəsizliyi üçün ciddi təhdiddir. Beynəlxalq Mülki Aviasiya Təşkilatı (BMAT), habelə Rusiya Federasiyasının sülhməramlı kontingenti bu kimi təhdid xarakterli fəaliyyətlərlə bağlı məlumatlandırılıb;

Son günlər, həm Azərbaycan və Ermənistan arasında delimitasiya olunmamış sərhəd boyunca, həm də Qarabağ bölgəsində hərbi-mühəndislik işlərinin və digər hərbi quruculuq fəaliyyətinin artması ilə müşayiət olunan hərbi təxribatların intensivləşməsi müşahidə olunur. Ermənistan açıq şəkildə növbəti hərbi hücum etmək üçün yeni səngərlər qazır, istehkamlar qurur, şəxsi heyət və texnika toplayır;

Ermənistan Azərbaycan ərazisində yeni minalar basdırmağa davam edir. Qeyd etmək lazımdır ki, ötən ilin avqustundan etibarən 2021-ci ildə Ermənistanda istehsal olunmuş 2728 mina aşkarlanıb və zərərsizləşdirilib. Bunların 1119-u Azərbaycan və Ermənistan arasında sərhəd ərazisində, Kəlbəcər və Laçın rayonlarında, 1609-u isə Qarabağ İqtisadi Rayonunun ərazisində aşkarlanıb. Rusiya sülhməramlı kontingenti, habelə Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin rəhbərləri, o cümlədən xarici ölkələrin hərbi nümayəndələri bu minaların nümayiş olunduğu əraziyə səfər ediblər;

Laçın sərhəd-buraxılış məntəqəsinin yaradılmasının səbəblərindən biri sözügedən qeyri-qanuni hərbi fəaliyyətin və qaçaqmalçılığın qarşısının alınması olub;

Azərbaycan ərazilərində qanunsuz qondarma rejimin yaradılmasının ildönümünə dair Ermənistanın Baş naziri tərəfindən verilmiş "təbrik məktubu" Ermənistanın Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün tanıması ilə bağlı əvvəl səsləndirilmiş bəyanatların qeyri-səmimi olduğunu bir daha sübut edib;

Əksinə, Ermənistan rəhbərliyinin son bəyanatları və fəaliyyəti əvvəlki bəyanatları əsaslı şəkildə heçə endirib;

Ermənistan tərəfindən Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün sözdə tanınmasına baxmayaraq, onun müxtəlif beynəlxalq təşkilatlar yanında akkreditə olunmuş diplomatik missiyaları qeyri-qanuni qondarma rejim adından sənədlər yaymaqda davam edir;

Azərbaycanın suverenliyi və ərazi bütövlüyü istənilən ölkəninki qədər vacibdir. Azərbaycan dünyanın istənilən ölkəsi kimi beynəlxalq hüquqda əks edilmiş bütün vasitələrlə öz suverenliyini və ərazi bütövlüyünü müdafiə etmək hüququna malikdir;

Bu vacib məqamda Ermənistanı öz təhlükəli yolundan döndərməyə məcbur etmək həmişəkindən daha mühümdür və daha çox tələb olunur;

Ermənistan və onun Azərbaycanın suveren ərazilərində bütün mümkün ideoloji, siyasi, hərbi, maliyyə və digər vasitələrlə qoruyub saxladığı xunta vaxt qazanmağa yönəlmiş köhnə taktikaya arxalanmağın heç bir nəticə verməyəcəyinə dair beynəlxalq ictimaiyyətin vahid və aydın mövqeyi ilə üzləşməlidir;

Azərbaycan həll yolunu tapmaqda maraqlıdır və bunu öz vasitəçiliyini təklif edən bütün tərəflərlə səmimi fəaliyyəti ilə sübut edib. İstisna olmadan bütün hallarda Ermənistan tərəfi müxtəlif bəhanələrlə əldə edilmiş razılıqları pozub. Bunun yeganə səbəbi isə vəziyyəti uzatmaq, gərginliyi artırmaq və sonda normallaşma prosesini pozmaq olub;

Azərbaycanın sülh prosesinə sadiqliyi möhkəmdir və bu mövqe 2020-ci ilin noyabr ayından etibarən atdığımız ardıcıl addımlarla sübut edilib;

Azərbaycan Ermənistandan hərbi quruculuq fəaliyyətini dayandırmasını, revanşist planlardan əl çəkməsini, Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü pozmağı dayandırmasını və Azərbaycanın Qarabağ bölgəsində separatizm və terrorizmi dəstəkləməkdən əl çəkməsini tələb edir. Bununla yanaşı, Azərbaycan Ermənistan silahlı qüvvələrinin şəxsi heyətinin dərhal çıxarılmasını, Ermənistana tabe qondarma rejimin hərbi və qondarma "hökumət" strukturlarının aradan qaldırılmasını və Azərbaycan ərazilərində qanunsuz yerləşdirilmiş Ermənistan silahlı qüvvələrinin tərk-silah edilməsini tələb edir. Bu halda, qondarma rejimin "nümayəndə"lərinə amnistiya tətbiq edilə bilər.

YENİ MÜSAVAT
N 166 (8302) 19 sentyabr 2023



Milli Qəhrəman Riad Əhmədovun nəşinin qalıqları tapıldı

"Bu konfrans ərəfəsində biz 9 nəfəri hərbçi, 1 nəfəri mülki şəxs olmaqla, daha 10 vətəndaşımızın meyit qalıqlarının eyniləşdirilməsinə nail olmuşuq".

Musavat.com xəbər verir ki, bunu "İtkin düşmüş şəxslərin taleyinə aydınlıq gətirmək üçün milli və qlobal səylərin artırılması" üzrə beynəlxalq konfransda çıxışında Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının sədri, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyev deyib.


Əli Nağıyev bildirib ki, onların sırasında Azərbaycanın Milli Qəhrəmanı Riad Əhmədov da var: "O, uzun müddət peşəkar zabit kimi təhlükəsizlik orqanlarında çalışıb, 1989-cu ildə erməni silahlı birləşmələri Azərbaycana qarşı elan olunmamış müharibəyə başladığı vaxtdan etibarən Riad Əhmədov bütün bacarığını Milli Ordunun yaradılmasına sərf edib, Azərbaycan Respublikası Müdafiə Nazirliyi Kəşfiyyat İdarəsinin rəis müavini vəzifəsinə təyin olunub. Riad Əhmədov 1992-ci il yanvarın 26-sında rəhbərlik etdiyi kəşfiyyat qrupu ilə Daşaltı kəndindəki döyüşdə yaralanaraq itkin düşüb".

Ə.Nağıyev vurğulayıb ki, məzar yerlərinin müəyyən olunması, qazıntı, ekshumasiya və eyniləşdirmənin aparılmasında səy göstərmiş İşçi qrupunun və Dövlət Komissiyasında təmsil olunan qurumların mütəxəssis heyətinin fəaliyyəti təqdirəlayiqdir:

"30 il əvvəl itkin düşmüş vətəndaşlarımızın, o cümlədən Azərbaycanın Milli Qəhrəmanı Riad Əhmədovun taleyinin aydınlaşması ciddi ictimai hadisədir. Bu sahədə çalışan bütün heyətimizə uğurlar diləyir, onlardan yeni nəticələr gözləyirik".

Kütləvi məzarlıqlardan ümumilikdə 508 şəxsə aid meyit qalıqları götürülüb

"Ötən dövr ərzində ANAMA, FHN, BQXK və digər qurumların iştirakı ilə aşkarlanan kütləvi məzarlıqlardan ümumilikdə 508 şəxsə aid meyit qalıqları götürülüb".



APA xəbər verir ki, bunu "İtkin düşmüş şəxslərin taleyinə aydınlıq gətirmək üçün milli və qlobal səylərin artırılması" üzrə beynəlxalq konfransda çıxışında Azərbaycan Respublikasının baş prokurorunun müavini, Azərbaycan Respublikasının hərbi prokuroru Xanlar Vəliyev deyib.

Hərbi prokuror bildirib ki, azad edilmiş ərazilərdə genişmiqyaslı tikinti-quruculuq işləri aparılarkən azı 98 şəxsə aid meyit qalıqları aşkar edilib və onlarla bağlı hərtərəfli iş gedir.

"Respublikanın şəhər və rayonlarında kimliyi müəyyən edilmədən basdırılmış 183 nəfərə aid meyit qalığı aşkar edilib", - Xanlar Vəliyev əlavə edib.

Hərbi prokuror qeyd edib ki, Birinci Qarabağ müharibəsində itkin düşmüş 3890 şəxsin 3407 ailə üzvündən 10 815 bioloji nümunə götürülüb.

Hərbi prokuror onu da bildirib ki, Birinci Qarabağ müharibəsində itkin düşmüş şəxslərin meyit qalıqlarının basdırıldığı ərazilər Ermənistanda mövcuddur: "Amma bu gün Ermənistan tərəfi həmin yerlərin koordinatlarını verməkdən yayınır. 3890 nəfər itkindən, sadəcə, 120 nəfər şəxsin meyit qalıqları Ermənistan tərəfindən Azərbaycan tərəfinə təhvil verilib".

Hərbi prokurorun sözlərinə görə, azad edilmiş ərazilərdə mina problemi də hələ qalmaqdadır: "Ermənistan tərəfi real minalarla çirklənmiş ərazilərin xəritələrini bu gün də vermir. Bu səbəblə də azad edilmiş ərazilərdə itkin düşmüş şəxslərin yerlərini müəyyən etmək çətinləşdirir. Azərbaycanda hələ də gümanlar var ki, itkin düşmüş şəxslərin bir qismi sağdır və Ermənistanda qul kimi işlədilir, digər qismi isə qətl edilərək kütləvi məzarlıqlarda basdırılıb".

"Füzuli rayonunun Aşağı Seyidəhmədli kəndində kütləvi məzarlıq cihazlar vasitəsilə axtarışlar zamanı üzə çıxmayıb", - deyə Xanlar Vəliyev bildirib. Hərbi prokuror qeyd edib ki, bu, meyit qalıqlarının qəbirlərdə deyil, torpağın qazılaraq qeyri-insanı şəkildə basdırılmasına görədir: "Ona görə də kütləvi məzarlıqlar əsirlikdən qayıtmış şəxslərin göstərdikləri ərazilərdə daha çox tapılır. İtkin düşmüş şəxslərin qalıqlarının aşkarlanması ilə bağlı beynəlxalq təcrübə öyrənilir, işlər davam etdirilir və bu işlər daha da geniş şəkil alacaq".

Separatçılar silahları sülhməramlılara verib gedirlər - Rusiyanın növbəti blefi, yoxsa...

Terrorçuların tərk-silah xəbərləri yayılır, lakin paralel olaraq Ağdərə istiqamətində təxribat gözlənilir; **polkovnik:** "Silahların yığışdırılması kütləvi olmalıdır"

Qarabağdakı qanunsuz erməni dəstələrinin tərk-silah olunması xəbəri yayılıb. "Yeni Müsavat"ın xəbərinə görə, bu barədə erməni teleqram kanalları məlumat verib. Həmin məlumata əsasən, Qarabağ bölgəsinin separatçı rejimi "müdafiə ordusu"nun ağır texnikasını Rusiya sülhməramlı kontingentinə təhvil verəcək.

Qeyd edək ki, Azərbaycanın tələbləri sırasında Qarabağdakı erməni silahlılarının tərk-silah olunması da var. Bu tələb 10 noyabr 2020-ci ildə imzalanmış üçlü bəyanatın 4-cü bəndində də öz əksini tapıb. İstisna deyil ki, erməni silahlılarının bu addımı atmasının əsas səbəbi Azərbaycan dövlətinin qərarlılığı və antiterror əməliyyatının başlama ehtimalının yüksək olmasıdır. Xəbərə inansaq, təhvil verilən ağır texnikanın aqibəti necə olacaq? Kim zəmanət verə bilər ki, onlar "X günü"ndə təzədən separatçılara qaytarılmayacaq? Bəs digər silahlar? Azərbaycan mövqelərinin atəşə tutulması, qanunsuz cəbhə xəttinin çəkilməsi, səngərlər qazılması cəhdləri yenə davam edəcəkmi? Yəni ruslar bundan sonra separatçıların hərbi yük maşınlarının yerdəyişməsini daha müşayiət etməyəcəklər?

Ümumiyyətlə, proses nə dərəcədə həm də Azərbaycanın müşahidəsi (nəzarəti) altında aparılacaq? Yoxsa bu, Bakının başını qatmaq, antiterror əməliyyatını mümkünsüz və uğursuz eləmək üçün Moskvanın növbəti blefidir? Əksinə, gələn məlumatlara görə, qanunsuz erməni silahlılarının Azərbaycan Ordusunun mövqelərinə hücumu gözlənilir. Eyni zamanda tələbə adı ilə mülki geyimdə Laçın postundan keçib Ermənistana qayıdanlar da var. Hətta onlardan biri azərbaycanlı jurnalistlərə etiraf edib ki, Ermənistan vətəndaşıdır və Xankəndidə hərbi xidmət edib, indi qayıdır. O, "Ermənistan vətəndaşı Azərbaycan ərazisində hərbi qulluq edir?" sualına susaraq heç bir cavab verə bilməyib. "Son saatlar ərzində qanunsuz silahlı dəstələr Ağdam istiqamətində atəşkəsi pozmaqla bərabər, kifayət qədər geniş miqyasda hərbi qüvvə toplamaqdadır. Ağdərə istiqamətində qanunsuz silahlıların ciddi yerdəyişmələri müşahidə olunur".



Bu sözləri isə hərbi ekspert Ədalət Verdiyev deyib. Hərbi ekspert yeni təxribatların gözlənildiyi haqda xəbərdarlıq edib: "Qarabağda rus sülhməramlıların müvəqqəti məsuliyyət bölgəsində yaşayan erməni separatçıların "hərbçiləri" geri çağırması və silah tuta bilənlərin qeyri-qanuni dəstələrə cəlbi, o cümlədən Ağdərədə hərbi texnikanın cəmləşməsi ilə silahlıların aktivliyi müşahidə olunur. Qarabağdakı separatçıların fəaliyyəti onların yaxın saatlarda təxribat törətmək üçün hazırlıqlarını demək olar ki, tamamladıqlarını göstərir. Böyük ehtimalla rus sülhməramlıların müvəqqəti məsuliyyət bölgəsindəki separatçıların qeyri-qanuni silahlı dəstələri yaxın saatlarda Ağdərə istiqamətindən Ordumuzun Ağdamdakı mövqeləri istiqamətində təxribat törədəcəklər. Ayıq-sayıq olmalıyıq və diqqətimizi xüsusilə Ağdərə istiqamətinə yönəltməliyik".

Hər iki informasiyanın bir-birindən fərqləndiyini nəzərə alsaq, ümumi gedişatı necə qiymətləndirmək olar? Bu məlumatlardan hansı daha səhih görünür? Qarabağdakı terrorçular üçün "yaşıl dəhliz" yaradıb onların bölgəni tərk etməsi üçün şərait yaratmaq olarmı? Azərbaycan rəsmilərinin dediyi "boz zona"ya nəzarət nə zaman qoyulacaq?

Polkovnik Şair Ramaldanov "Yeni Müsavat"a bildirdi ki, yalnız rəsmi məlumatlara inanmaq olar: "Ancaq rəsmi xəbərlər yoxdur. Azərbaycan onlara ultimatum versə, separatçılar xəbərdarlığın qarşısında tərk-silah olmasalar, onda öz gücümüzlə bunu həll edə bilərik. Çünki erməni silahlılarının çıxarılmasına başlamaq üçün əlimizdə hüquqi sənəd var və buna əsasən "təmizləmə" işləri apara bilərik. Son proseslərdə isə görürük ki, hələ də silahların rotasiyası davam edir, fortifikasiya qurğuları qurmağa cəhd edilir, səngərləri qazmağa çalışırlar. Üstəlik, sülhməramlıların komandanı da hər hansı fikir bildirməyib". **Polkovnik hesab edir ki, silahların yığışdırılması kütləvi olmalıdır, bu gün 5 silah, sabah 10 silah verməklə iş olmur:** "Separatçılar hələ ki təslim olmur, Rusiya rəsmiləri də bu barədə fikir bildirmirlər. Ən azı Zaxarova deyərdi ki, onlar tərk-silah edilirlər. Həmçinin Ermənistan sərhədə cəmlədiyi hərbi texnikanı geri çəkməyib".

Siyasi ekspert Fuad Əliyevin sözlərinə görə, Qarabağda erməni silahlılarının gələcəyi yoxdur: "Özləri də başa düşürlər ki, burada nə vaxta qədər qalacaqlar? Axı çıxış yolları yoxdur. Bütün ərazilərə kontrol edirik. Yəni yüksəkliklər bizdədir. Onlar başını qaldırmaq istəyəndə vura bilirik. Qaçış yolları da yoxdur. Əgər 10 min silahlı varsa, onların hamısı rusların maşınında aradan çıxa bilməzlər. Ona görə də tək variant mülki geyimdə Laçın postundan keçməklə getməkdir. Belə olanda da məcburdurlar ki, mülki formada çıxıb getsinlər. Biz bu prosesin "yumşaq güc" yolu ilə həllinə razıyıq. Bölgədə qarşıdurma, hərbi əməliyyatların olmasındansa, erməni silahlıları sakitcə çıxıb getsinlər. Sadəcə, biz buna Ağdam-Xankəndi yolunun intensiv işləməsindən sonrakı dövrdə mərhələli şəkildə nail ola bilərik".

❑ **Emil SALAMOĞLU,**
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 166 (8302) 19 sentyabr 2023

Erməni rəvayətlərinə inanan "Sem dayı". ABŞ niyə özünü "yandırdı"...

Bakıdan reaksiyalar: "Vaşinqton ABŞ formatlı danışıqların başlanmasını istəyirsə, Yuri Kimin fikirlərindən fərqli mövqe ortaya qoymalıdır, öz mövqeyinə müəyyən korrektələr etməlidir"

Sentyabrın 16-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ABŞ Dövlət Departamentinin Qafqazda danışıqlar üzrə baş məsləhətçisi Lui Bono ilə görüşüb (Bono bir gün qabaq İrəvanda olub).

Görüşdə regiondakı vəziyyət, Azərbaycan və Ermənistan arasında normallaşma və sülh prosesi, mövcud təhdid və çağırışlar müzakirə olunub. Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidməti bildirib. Bayramov qeyd edib ki, sentyabrın 1-də Azərbaycan Prezidenti İlham Əliyev və ABŞ dövlət katibi Entoni Blinken arasında danışıq zamanı Ağdam-Xankəndi və Laçın yolunun eyni zamanda açılması barədə əldə olunmuş razılığın həyata keçirilməsinə əngəl törədən tərəf Ermənistan və onun yaratdığı qondarma rejimdir. O əlavə edib ki, bu fakt bölgədə guya "humanitar böhran", "blokada" olması ilə bağlı səsləndirilən iddiaların əksinə, vəziyyətin heç də humanitar deyil, əslində siyasi olduğuna dəlalət etdiyini bir daha göstərir.

Nazir Ermənistan tərəfinin davamlı hərbi-siyasi təxribatlarına, bütün dünyada Azərbaycan əleyhinə qarayaxma kampaniyası aparmasına, ərazilərimizdə separatçılığı dəstəkləməsinə baxmayaraq, ölkəmizin konstruktiv mövqe sərgiləməsinin fonunda bölgədəki vəziyyətlə yaxından tanış olan bir sıra beynəlxalq tərəfdaşların, o cümlədən ABŞ tərəfinin Ermənistanın rəvayətlərinə uyaraq erməni tərəfinin iddialarını təkrarlamasının qəbuledilməz olduğunu bildirib.

Bununla əlaqədar C.Bayramov ABŞ dövlət katibinin köməkçisi Yuri Kimin çıxışında (ABŞ Senatında) hələ də bütün silahlı qüvvələrini Azərbaycan ərazisindən çıxarmayan Ermənistanın əsassız iddialarının əksini tapmasından təəssüfləndiyini bildirib.



ABŞ tərəfi ilə 1 sentyabr razılığına uyğun olaraq yolların paralel açılmasına Ermənistan və qondarma rejimin maneçilik törətməsinin Senatda ABŞ rəsmisi tərəfindən bəyan edilməməsi vəziyyətə dair yanlış təəssürat yaradıb. Bununla yanaşı, nazir Azərbaycanın yolların paralel istifadəsi üzrə razılaşmaya sadiqliyini təsdiqləyib (diqqətçəkəndir ki, Prezident İlham Əliyev ABŞ rəsmisini qəbul etməyib).

Yada salaq ki, BMT TŞ-nin 18 avqust iclasında ABŞ əsasən ədalətli mövqe sərgiləmiş, erməni küyünə getməmişdi. Bəs ötən müddətdə nə baş verdi ki, Birləşmiş Ştatlar Bakı və İrəvan arasında neytral vasitəçi olmaq şansını faktiki yandırdı, Vaşinqton sülh platformasını iflasa uğratdı?

Bu platformanın bərpası mümkünmü? Departament rəhbərliyi, konkret olaraq Entoni Blinken öz köməkçisinin Bakıya qarşı "Dağlıq Qarabağ xalqı", "etnik təmizləmə təhlükəsi", "Azərbaycanla Ermənistan arasında müharibə bitməyib" kimi olduqca təxribatçı və qərəzli fikirlərinə düzəliş edəcəkmi?

Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri İlyas Hüseynov "Yeni Müsavat"a bildirdi ki, ABŞ-ın mövqeyində dəyişikliyin hiss olunması təhlükəli tendensiyalardan xəbər verir. Biz bu mövqe dəyişikliyini aydın şəkildə görürük: "Burada, əlbəttə, iki səbəb nəzərə çarpır. Birincisi, ABŞ regionda öz nüfuzunu genişləndirmək istəyir. Bu xüsusda Rusiyanın maraqlarına zərbə vurmaqla özü burada hegemon mövqeyə malik olmaq niyyətini ifadə edir. Digər tərəfdən, Ermənistan getdikcə Rusiyanın geopolitik vektorundan uzaqlaşır və ABŞ-la, ümumən isə Qərblə yaxınlaşma kursunu götürür. Bu isə ABŞ tərəfindən müsbət mesajlarla qarşılanır. Çünki Rusiya-Ermənistan münasibətlərində gərginlik artır. Kremlə qarşı açıq demarş edilir. "Roma statusu" sənədinin ratifikasiya edilməsi, KTMT-də daimi nümayəndənin geri çağırılması, ABŞ-la birlikdə hərbi təlimlərin keçirilməsi, Anna Akopyanın Kiyevə səfər etməsi və Ukraynaya yardım göndərilməsi Rusiya ilə Ermənistan arasında olan kövrək münasibətləri daha da zədələdi. ABŞ-ın Cənubi Qafqaza dair maraqlarını təhlil edərkən erməni lobbisi faktorunu da nəzərə almalıyıq. ABŞ Konqresindəki erməni lobbisi Azərbaycana qarşı bütün gücü ilə fəaliyyət göstərir və ABŞ-ın siyasətin təsir göstərməyə çalışır. Dövlət katibinin köməkçisi Yuri Kimin yanaşmasında bu açıq-aydın görünür. Onun səsləndirdiyi fikirlər sırf ermənilərin istəyinə uyğun fikirlərdir və Azərbaycan tərəfindən qəbuledilməzdir. Düşünürəm ki, Yuri Kimin fikirləri ABŞ-ın mövqeyini əks etdirmir. ABŞ-ın Azərbaycanla Ermənistan arasında vasitəçilik etdiyi, Vaşinqton formatının yenidən gündəmə gətirildiyi bir vaxtda dövlət katibinin köməkçisinin o cür fikirləri vasitəçiliklə ziddiyyət təşkil edir. Vaşinqton formatı uğurla fəaliyyət göstərirdi. Ermənistanın addımları bu formatın iflasa uğramasına gətirib çıxarmışdı. Keçən həftə isə ABŞ-ın bu formatda danışıqları bərpa etmək niyyətinin olduğu açıqlanmışdı. Bunun ardınca Yuri Kimin söylədikləri prosesə yenidən zərbə sayıla bilər. Ona görə də əgər Vaşinqton ABŞ formatlı danışıqların başlanmasını istəyirsə, Yuri Kimin fikirlərindən fərqli mövqe ortaya qoymalıdır. ABŞ öz mövqeyinə müəyyən korrektələr etməlidir. Çünki əks təqdirdə, Vaşinqton formatı birdəfəlik iflasa uğraya bilər".

Politoloq Elxan Şahinoğlu isə bildirdi ki, ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Luis Bono bölgəyə səfərini ABŞ-ın Ermənistan-la Azərbaycan arasındakı vəziyyətin nizamlanması istiqamətində səylərinin davamı kimi qiymətləndirib: "Görüşlərdə Ağdam-Xankəndi və Laçın yolu mövzuları da müzakirə predmetidir. Böyük ehtimalla dövlət katibi Entoni Blinken Azərbaycan və Ermənistan xarici işlər nazirlərini Nyu-Yorkda görüşdürmək istəyir. Blinken Bononu ona görə İrəvan və Bakıya göndərib. BMT Baş Assambleyanın 19-25 sentyabr tarixlərində əsas tədbirləri keçiriləcək. Bu tədbirlər çərçivəsində Entoni Blinkenin vasitəçiliyi ilə Ceyhun Bayramovla Ararat Mirzoyanın görüşməsi mümkündür. Vaşinqton anlayır ki, indiki şərtlər altında sülh sazişinin imzalanması çətindir. Ancaq Dövlət Departamentində hesab edirlər ki, heç olmazsa intensiv görüşlər vasitəsilə Azərbaycanla Ermənistan arasında yeni toqquşmanın qarşısını ala bilərlər".

Qeyd edək ki, artıq üç ilə yaxın bir dövr ərzində Ermənistanla aparılan danışıqlarda müxtəlif formatlar çərçivəsində əldə olunmuş razılaşmalardan sonradan Ermənistan dövlətinin, baş nazirinin imtina etməsi, öhdəlikləri yerinə yetirmək istiqamətində real addımlar atmaması ayrı-ayrı formatlar, o cümlədən Vaşinqton formatında keçirilən görüşlərə inamı zəiflədib, görüşlərin keçirilməsi artıq dalana dirənib.

Onu da bildirək ki, Vaşinqton formatında görüşün keçirilməsi təşəbbüsü ötən həftə ABŞ Dövlət Departamenti rəsmisi tərəfindən bəyan edildikdən bir neçə gün sonra Ermənistanın baş naziri Nikol Paşinyan İrəvanla Bakı arasında sülh sazişinin imzalanma perspektivindən danışıb və deyib ki, mövcud şərtlər daxilində Ermənistanla Azərbaycan arasında sazişinin bağlanması real deyil. O, jurnalistlərə açıqlamasında iki ölkə arasında sülh sazişinin imzalanması ilə bağlı məsələnin gündəmdə olmadığını bildirib. Paşinyan qeyd edib ki, hələlik Ermənistanın maraqlarına cavab verən razılaşdırılmış sənəd yoxdur. Baş nazir iki ölkə arasında intensiv danışıqların davam etdiyini vurğulayıb və ümid etdiyini bildirib ki, tərəflər məsələnin həllinə nail olacaqlar. Bu fikirlər bir tərəfdən Paşinyanın danışıqlara hazır olduğunun ifadəsidirsə, digər tərəfdən sülh sazişinin imzalanmasının gündəmdə olmamasının bildirilməsi danışıqların nəticəsizliyinin etirafıdır.

❑ **Etibar SEYİDAĞA,**
"Yeni Müsavat"



Şarl Mişel

Aİ Laçın və Ağdam yollarından Xankəndinə yüklərin eyni vaxtda keçməsini alqışlayır

Laçın və Ağdam yollarından Xankəndinə yüklərin eyni vaxtda keçməsini alqışlayırıq. APA xəbər verir ki, bu barədə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel "X" platformasında paylaşım edib.

"Artıq bu proses qaydaya salınmalıdır. Həmçinin Bakı və Qarabağın erməni sakinləri arasında hüquq və təhlükəsizlik məsələləri üzrə danışıqlara başlamaq da vacibdir. Aİ bunu dəstəkləməyə hazırdır", - o deyib.

YENİ MÜSAVAT
N 166 (8302) 19 sentyabr 2023

Xuntaçıların baş tutmayan dirənişi - Azərbaycanın hədəflərinə doğru daha bir addım

Politoloq: "BQXK Laçın yolundan daşımaları Azərbaycan qanunvericiliyi çərçivəsində həyata keçirəcək: sərhəd qaydalarına əməl ediləcək, gömrük rüsumu ödəniləcək"

Xankəndidəki qanunsuz rejim Ağdam yolunun Beynəlxalq Qırmızı Xaç Komitəsi və Rusiya sülhməramlıları üçün açılması qərarını qəbul edib. Musavat.com xəbər verib ki, Qarabağdakı qondarma rejim BQXK və Rusiya sülhməramlılarının Laçın yolu və Ağdam-Xankəndi marşrutu üzrə yüklərin paralel çatdırılması təklifini qəbul etmək qərarına gəlib.



Bildirilib ki, daşınma Qırmızı Xaç avtomobilləri ilə həyata keçiriləcək.

Bəs Azərbaycanın göndərdiyi və üç həftədir Ağdamda gözləyən yüklər? Hələ ki bununla bağlı mövqe yoxdur. Bütün hallarda istisna deyil ki, bu "qərar" Azərbaycanın qəti və prinsipial mövqeyinin məntiqi nəticəsidir.

Qeyd edək ki, hər iki yolun eyni vaxtda (Laçın postunda qayda-qanunlarımız gözlənilməklə) açılması barədə razılaşma hələ sentyabrın 1-də əldə olunmuşdu. Lakin Qarabağdakı quldur rejim öz havadarlarına arxalanaraq, razılaşmanın həyata keçirilməsini müxtəlif şoularla 16 gün yubatdı.

Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev X sosial şəbəkəsində bildirib ki, Ağdam-Əsgəran-Xankəndi yolu açıq və funksionaldır və belə olmalıdır! Bu, Azərbaycanın prinsipial, ədalətli, legitim və dönməz mövqeyidir! Bütün beynəlxalq ictimaiyyət bir daha şahidi oldu ki, blokada deyilən bir şey yox idi, ancaq Ermənistan və qeyri-qanuni marionet rejimi, lobbi qrupları və bəzi qərbli korrupsioner siyasətçilər və qərəzli KİV tərəfindən xalqı yanıltmaq, manipulyasiya etmək və çaşdırmaq məqsədilə humanitar məsələlərin və teatr əsərlərinin qəsdən öz-özünə blokadası, silahlanması və siyasiləşdirilməsi var idi!

"Maskalar düşür, reallıq qalır"! Azərbaycanda boz zonalara yer yoxdur!" - Hacıyev vurğulayıb.

Azərbaycan XİN yeni situasiya ilə bağlı açıqlama verib. Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə bildirib ki, əldə olunmuş razılaşmalara baxmayaraq, Ermənistan və onun Azərbaycanın Qarabağ bölgəsində yaratdığı marionet rejim əvvəldən Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarının eyni vaxtda işləməsinə mane oldu və vəziyyətin humanitar deyil, siyasi xarakter daşıdığını bir daha sübut etdi: "Azərbaycan öz suveren torpağında yeganə qərar qəbul edən ölkə olaraq uzun müddətdir ki, yüklərin çatdırılması üçün Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarının eyni vaxtda istifadəsi təklifini dəstəkləmiş və təcrübəçi tərəfdaşlarla danışıqlarda bu təklifin həyata keçirilməsinə razılıq vermişdir. Lakin təəssüflər olsun ki, əldə olunmuş razılaşmalara baxmayaraq, Ermənistan və onun Azərbaycanın Qarabağ bölgəsində yaratdığı marionet rejim əvvəldən bunun həyata keçirilməsinə mane oldu və vəziyyətin humanitar deyil, siyasi xarakter daşıdığını bir daha sübut etdi. Daha əvvəl qeyd edildiyi kimi, Azərbaycan Laçın sərhəd-keçid məntəqəsində gömrük və sərhəd prosedurlarına riayət olunmaqla, Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarının paralel istifadəsini təmin etməyə hazırdır".

O ki qaldı yerində vəziyyətə, BQXK-nın Bakı nümayəndəliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova "Report"un Ağdama ezam olunmuş əməkdaşına məlumat verib ki, Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) Qarabağda yaşayan erməniəsilli şəxslərə un və tibbi ləvazimatlar göndərib. O qeyd edib ki, Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) avtomobilləri Ağdam və Laçın yolundan keçməklə insanlara lazım olan humanitar yükləri çatdırır: "Bu, un və tibbi ləvazimatlardır. Biz çox şadıq ki, qərar verənlər konsensusa gəliblər. Ümid edirik ki, bu humanitar konsensus insanlara lazım olan yardımın davamlı surətdə çatdırılmasında dəstək olacaq. İlk dəfə idi ki, Beynəlxalq Qızıl Xaç Komitəsi eyni vaxtda həm Laçın, həm də Ağdam yolundan istifadə etməklə yükləri çatdırıb".

O, həmçinin bildirib ki, ötən ilin dekabrından indiyədək Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) tərəfindən 800-dən artıq xəstənin Laçın yolu vasitəsilə Ermənistandakı tibbi müəssisələri təxliyəsi həyata keçirilib. Onun sözlərinə görə, ötən ilin dekabrından bu günə kimi 80-dən artıq tibbi təxliyə həyata keçirilib. Bu tibbi təxliyə nəticəsində 800-dən artıq xəstə və onları müşayiət edənlər təxliyə olunub".

Qeyd edək ki, BQXK-ya məxsus avtomobilin içərisindəki un və tibbi ləvazimatlar Xankəndidə boşaldılaraq Ağdama geri qayıdıb.

Siyasi şərhçi Asif Nərimanlı vəziyyəti belə şərh etdi: "Qarabağdakı separatçılar Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) avtomobilləri vasitəsilə yüklərin Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarından paralel şəkildə qəbul edilməsinə razılaşıb. Bu, Ağdam yolundan Rusiya yükünün keçməsindən sonra irəliyə doğru növbəti addım hesab edilə bilər. Lakin açıq qalan sual var - BQXK Laçın yolundan Ermənistandan gələn yükləri keçirəcək, bəs Ağdam-Xankəndi yolundan daşıyacağı yüklər Azərbaycan yükləri olacaqmı? Rəsmi məlumatlarda bu məsələ qeyd olunmur, hərçənd Rusiyadan gələn yüklər sülhməramlılar tərəfindən aparılıb və əgər BQXK da təkcə rusların yükünü daşıyacaqsa, o zaman komitənin Ağdam-Xankəndi yolunda fəaliyyəti sual altına düşür. Bu baxımdan, beynəlxalq komitənin Ağdam-Xankəndi yolundan Azərbaycan yüklərini Xankəndinə aparacağı fikrini irəli sürmək, yaxud qarşıdakı günlərdə bunun baş verəcəyini demək mümkündür. BQXK-nın hər iki yoldan yük daşınmasını həyata keçirməsinin əhəmiyyətli tərəfləri var:

Birincisi, Ağdam-Xankəndi marşrutundan təkcə Rusiyanın keçidi Qərb dairələrinə bu yolun legitimliyinə şübhə etmək imkanı verirdi, indi BQXK-nın prosesə qoşulması Bakının istədiyi marşrutun beynəlxalq müstəvidə qəbul edilməsi deməkdir;

İkincisi, BQXK Laçın yolundan daşımaları Azərbaycan qanunvericiliyi çərçivəsində həyata keçirəcək: sərhəd qaydalarına əməl ediləcək, gömrük rüsumu ödəniləcək, XİN-in açıqlamasında qaydalar yenidən vurğulanıb; bu, ilk növbədə Laçın yolu ilə bağlı iddiaları-planları sıradan çıxarır, eyni zamanda növbəti mərhələdə Ağdam-Xankəndi yolunun daşımalarda daha səmərəli olacağı reallığı yaranacaq və əsas marşrut bu yol olacaq;

Üçüncüsü, BQXK-nın Xankəndinə Ağdamdan daxil olması bu təşkilatın İrəvandakı ofisinin Azərbaycan ərazisinə müdaxiləsini aradan qalxması perspektivini də önə çıxarır: komitənin Xankəndidəki nümayəndəliyi hələ də Ermənistandakı ofisə tabedir və bu, həm beynəlxalq hüquqa, həm də Azərbaycan qanunlarına ziddir; gözləniləndir ki, komitənin Ağdam marşrutundan istifadəyə başlamasından sonra Xankəndidə nümayəndəliyin fəaliyyətinin Bakıdakı ofis tərəfindən yönləndirilməsi aktuallaşacaq; bu, erməni əhalisinin reinteqrasiyası prosesinin tərkib hissəsi olmalıdır.

Separatçların geri çəkilməsi Bakını Xankəndi hədəfinə doğru daha da yaxınlaşdırır. Lakin bu geriçəkilmə separatçı qurumun ləğv edilməsi, erməni silahlı dəstələrin ərazimizdən çıxarılması və tərk-silah edilməsi gündəliyini dəyişdirmir".

Rusiyanın "Nasionalnaya Oborona" jurnalının baş redaktoru, tanınmış hərbi ekspert İqor Korotçenko isə Telegram səhifəsində bildirib ki, Ağdam-Xankəndi yolunun açılması Qarabağ ermənilərinin Azərbaycanın siyasi-hüquqi məkanına praktiki olaraq reinteqrasiyasının başlanğıcıdır. Onun sözlərinə görə, separatçılar və onların lobbiçilərinin Ağdam-Xankəndi yolunun açılmasına mane olmalarına baxmayaraq nəqliyyat arteriyası açılıb: "Xeyir şərə qalib gəlir. Eyni zamanda Azərbaycan qanunvericiliyi ilə müəyyən edilmiş sərhəd və gömrük prosedurlarına riayət olunmaqla Laçın yolu ilə avtomobillərin hərəkəti açılıb. İndi "blokada" yoxdur, "kütləvi aclıq", "soyqırımı" yoxdur - təbliğat işə yaramadı. Əslində bu, Qarabağ ermənilərinin Azərbaycanın siyasi-hüquqi məkanına praktiki olaraq reinteqrasiyasının başlanğıcıdır".

Son məlumata görə, Qarabağın erməni icması üçün humanitar yardımın növbəti partiyası bir neçə gündən sonra Laçın və Ağdam marşrutu ilə Rostovdan çatdırılacaq. Bildirilir ki, sentyabrın 18-də Beynəlxalq Qızıl Xaç Komitəsi və Rusiya sülhməramlıları ilə əldə olunmuş razılaşmaya əsasən, Laçın yolu vasitəsilə Ermənistan istehsalı olan 23 ton un daşınıb. Ağdam yolu ilə isə xarici istehsal olan tibbi və gigiyenik vasitələr göndərilib.

❑ **Nigar HƏSƏNLİ,**
"Yeni Müsavat"



Əli Nağıyev

DTX rəisindən Ermənistana çağırış

"Rəsmi İrəvanı əsir və girov götürülmüş vətəndaşlarla bağlı məsələlərdə daha sıx əməkdaşlığa dəvət edirəm". Musavat.com xəbər verir ki, bunu Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) rəisi general-polkovnik Əli Nağıyev "İtkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılması üçün milli və beynəlxalq səylərin artırılması" mövzusunda beynəlxalq konfransda çıxışı zamanı deyib.

"Ümid edirik ki, dəqiq mina xəritələri, həmçinin itkin düşmüş şəxslərin sonrakı taleyi, onlara aid məzar yerləri barədə məlumatlar Ermənistan tərəfindən Azərbaycana təqdim ediləcəkdir. Hər iki tərəfə aid itkin düşmüş şəxslərin meyit qalıqlarının tapılaraq eyniləşdirilmə aparılması uzun müddət mövcud olan humanitar böhranın aradan qaldırılmasına xidmət edərdi", - xidmət rəisi əlavə edib.

Ə.Nağıyev vurğulayıb ki, biz bu istiqamətdə hərtərəfli əməkdaşlığa hazırıq: "Lakin ötən dövrdə bu sahədə biz Ermənistanın konstrukrtiv mövqe tutacağına ümid etsək də, gözləntilərimiz özünü tam doğrultmamışdır. Bu konfransın yaratdığı imkanlardan istifadə edərək rəsmi İrəvanı əsir və girov götürülmüş vətəndaşlarla bağlı məsələlərdə daha sıx əməkdaşlığa dəvət edirəm".

YENİ MÜSAVAT
N 166 (8302) 19 sentyabr 2023

Bakıdan İrəvana son xəbərdarlıq - Zəngəzur dəhlizi ləngisə...

Ermənistan öhdəliklərindən imtina etsə, Azərbaycan gözləmək fikrində deyil, alternativ nəqliyyat marşrutları üzərində işləyəcək; İranla imzalanmış memorandum işə düşə bilər

"Ermənistan öz öhdəliklərindən imtina etsə, Azərbaycan digər ölkələrlə alternativ nəqliyyat marşrutları üzərində işləyəcək". "Yeni Müsavat" bildirir ki, bunu TASS-a müsahibəsində Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

"Əgər Ermənistan müxtəlif bəhanələrlə öz öhdəliklərindən imtina etsə və təcrid olunmuş vəziyyətdə qalmaq istəsə, onda Bakı gözləmək fikrində deyil və artıq regionun digər ölkələri ilə alternativ layihələr üzərində fəal işləyir. Biz logistik ehtiyaclarımızı Ermənistan hökumətinin şıltaqlıqlarına bağlamayacağıq və regional tərəfdaşlarımızla hərəkət etməyə davam edəcəyik", - H.Hacıyev faktiki İrəvanı son dəfə xəbərdar edib. H.Hacıyev həmçinin vurğulayıb ki, Azərbaycan ardıcıl olaraq regionda bütün nəqliyyat kommunikasiyalarının açılmasının tərəfdarıdır, çünki sıx ticarət-iqtisadi əlaqələrin regionun sülh, sabitlik və rifahına töhfə verəcəyinə inanır. "Bu kontekstdə biz həmin istiqamətdə irəliləyiş əldə etmək üçün böyük səylər göstərən Rusiya Federasiyasının mövqeyini yüksək qiymətləndiririk", - Prezident köməkçisi qeyd edib.

Onun sözlərinə görə, nəqliyyat əlaqələrinin açılması ilə bağlı danışıqlarda müəyyən durğunluq müşahidə olunur. Beləliklə, o xatırladıb ki, Rusiya, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli bəyanatının müddəalarından biri Zəngəzur dəhlizinin açılmasıdır ki, bu da Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz əlaqənin təmin edilməsi deməkdir. "Lakin təxminən 3 il keçsə də, sazişin bu bəndi hələ də Ermənistan tərəfindən yerinə yetirilməyib", - Hikmət Hacıyev bildirib. "Zəngəzur dəhlizinin açılması, ilk növbədə üç onillikdə Azərbaycana qarşı apardığı işğalçılıq siyasəti nəticəsində regionun nəqliyyat və logistika arxitekturasının kənarında qalan Ermənistanın özünə sərf edir", - H.Hacıyev fikirlərini yekunlaşdırıb.

Qeyd edək ki, Azərbaycanla İran arasında memorandum imzalanıb. Zəngilandan İrana keçərək Naxçıvana quru yol təmin edilir. Prezident köməkçisi alternativ yollar dedikdə bir də bu marşrutu nəzərdə tutur. Üstəlik, Zəngəzur koridorunun açılması Ermənistana da lazımdır. Bu nəqliyyat kommunikasiyasından Ermənistan Rusiyaya daşımalarla gəlir əldə edəcək. Üçtərəfli razılaşmaya əsasən yoldan maneəsiz gediş-gəliş təmin edilməlidir, Rusiya Federal Təhlükəsizlik Xidməti isə dəhlizə nəzarət etməlidir. Paşinyan iddia edir ki, razılaşmada yolun dəhliz statusu daşıması yoxdur və Ermənistan ərazisindən dəhliz verməyəcək. O, yolların açılmasının tərəfdarı olduğunu, lakin dəhliz statusunda olmamasını təklif edir. Yəni erməni gömrükçülərinə rüsum ödənilir, erməni sərhədçiləri yoxlayır... Hərçənd belə bir anlaşma yoxdur, İrəvan bəhanə edir. Bu məsələdə Tehran da İrəvanı dəstəkləyir və açıq şəkildə bəyan edilir ki, Cənubi Qafqazın sərhədləri dəyişdirilə bilməz. Bəs Ermənistan nəyə arxayındır, təkcə İrana? Niyə hamıdan çox onun özünə sərfəli olan öhdəlikləri yerinə yetirmir? Kapitulyant ölkə daha nə qədər özü-özünü blokadada saxlayacaq?



Siyasi və Hüquqi Araşdırmalar Mərkəzinin rəhbəri Xəyal Bəşirovun "Yeni Müsavat"a bildirdiyinə görə, Ermənistanın Zəngəzur dəhlizinin açılması ilə bağlı müqaviməti məntiqsizdir: "Onun öz mənafeyinə, iqtisadi maraqlarına uyğun bir layihədir. Ermənistan blokada şəraitində yaşadığını bildirir. Amma Azərbaycan 3+3 əməkdaşlıq formatı təklif edir, bu platformanın tərkib hissəsi Zəngəzur dəhlizidir. Eyni zamanda, bu koridor qlobal layihədir. Azərbaycanla Türkiyəni, Avropa ilə Mərkəzi Asiyanı birləşdirir. İrəvan buna mane ola bilməz. Ermənistan bundan imtina etdiyi halda, özü uduzacaq. Hətta nəzəri olaraq desək ki, onlar bizdən qisas almaq istəyirlər, bunun üçün müdafiə qabiliyyətini artırmalıdırlar. O halda kənardan olan dəstəklə ordusunu gücləndirə bilməz, iqtisadiyyatı inkişaf etməlidir. Yəni mən onların prizmasından məsələni belə qoyuram. Bütün hallarda Ermənistan nəqliyyat kommunikasiyaların açılmamasından itirir. Digər tərəfdən, Ermənistan Avropaya çıxış etmək, Rusiyadan asılılığı azaltmaq istəyirsə, dəhlizin işləməsinə şərait yaratmalıdır".

X.Bəşirov Azərbaycanın nəhəng layihələr həyata keçirdiyini hesab edir: "Biz azad edilən ərazilərdə beynəlxalq aeroportlar inşa edirik, müasir yollar qururuq, sürətlə iş aparırıq. Təsəvvür edin ki, Azərbaycan konkret layihələr reallaşdırır, Ermənistan isə regionda marionet rejimi himayə etməklə məşğuldur. Qərb bunu görmürmü? Təbii ki, qurulan kommunikasiyalardan, logistika məqsədilə çəkilən yollardan istifadə edilməlidir. Azərbaycan bu işləri boş-boşuna görmür. Ermənistan bilir ki, biz Gürcüstan vasitəsilə yükləri daşıyırıq. Əgər İrəvan düşmənçilik siyasətini davam etdirəcəksə, İranla imzalanmış memorandum əsasında həmin yoldan istifadə edəcəyik. Əslində İranla ciddi layihələrimiz var. Sadəcə, bəzi qüvvələr Tehran-Bakı münasibətlərində düşmənçilik yaratdı, ermənipərəst siyasət yürütdülər. İndi İran görür ki, ermənilər amerikalı hərbçilərlə birgə təlimlər keçirir. Bu təlimlər Rusiya və İrana qarşı yönəlib. Tehran bunu görməkdədir. O baxımdan, Azərbaycanla İranın layihələri işə düşməlidir, itirən isə erməni tərəfidir".

❑ **Emil SALAMOĞLU**
"Yeni Müsavat"

Keçmiş Dağlıq Qarabağ Ermənistanın ərazisi olsaydı...

Keçmiş Dağlıq Qarabağdakı oyuncaq xunta Rusiya maşınını Xankəndinə buraxsa da Azərbaycanın humanitar yüklə dolu iki maşını biz bu sətirləri yazanda artıq on səkkizinci gün idi ki, Ağdam yolunda gözləyirdi.



Hüseynbala SƏLİMOV

Bu nə "prinsip"dir? Ermənilər bununla nəyə nail olmaq istəyirlər? Məgər onlara aydın deyilmi ki, keçmiş Dağlıq Qarabağın "blokada"sı haqqındakı nağıllar ayaq tuta bilmədi, onları Fransadan başqa demək olar ki, heç kim qəbul etmədi? Üstəlik, Rusiya öz maşınını Ağdam-Xankəndi yolundan göndərməklə demək olar ki, özü öz müttəfiqini tamam-kamal ifşa etmədimi?..

Biz bu suallara bircə-bircə cavab verməyəcəyik, çünki onların cavabları hamıya məlumdur. Aydın məsələdir ki, bu yolla ermənilər Azərbaycana təzyiq etmək, Laçın dəhlizini bərpa etmək istəyirlər. Amma əbəsdir. Ona görə ki, ermənilər elə-belə yol yox, nəzarətsiz keçid maraqlandırır ki, bu yolla Xankəndinə silah-sursat daşısınlar.

Əslində heç bir vaxt qanuni "Laçın dəhlizi" anlayışı olmayıb, Azərbaycan heç vaxt ermənilərə belə bir dəhliz verməyibdir. Ermənilər Laçını da, Laçın yolunu da işğal etmişdilər və bu yoldan nəzarətsiz-filansız istifadə edirdilər. Aydın məsələ idi ki, Bakı işğal olunmuş rayonlarını, o cümlədən də Laçını qaytarandan sonra vəziyyət dəyişəcək.

Bir də hansı "dəhliz"dən söhbət gedə bilər? Əgər keçmiş Dağlıq Qarabağ Ermənistanın ərazisi-anklavı olsaydı bəlkə də hansısa dəhlizdən danışmaq olardı.

Amma belə bir şey yoxdur. Həm də bu "məntiq"lə gərək, ermənilər çoxdan bizim Naxçıvanı Azərbaycanın qalan hissəsi ilə birləşdirən dəhliz verəydilər bizə! Bu "məntiq"lə gərək, biz Gürcüstandan bu ölkədə azərbaycanlılar yaşayan ərazilərə keçmək üçün dəhliz tələb edək!..

Bir sözlə, bunlar hamısı absurddur. Əsas odur ki, biz addımbaaddım öz istəklərimizə və məqsədlərimizə çatırıq. Keçmiş Dağlıq Qarabağ problemi bizim gözlərimiz önündən keçib gedib. Yadımıza gəlir ki, hələ otuz il bundan əvvəl ictimai və siyasi müzakirələrdə deyilirdi ki, Dağlıq Qarabağ problemini həll etmək çox asandır, bunun üçün yetər ki, bu bölgəyə aparan yolları-irizləri nəzarətə götürəsən.

Əlbəttə ki, bunu deyən insanlar haqlı idilər. Amma bu işi həyata keçirmək üçün otuz il vaxt lazım oldu. Məsələ bunda idi ki, doxsanıncı illərin əvvəllərində nəinki Azərbaycan Ordusu yox idi, heç Azərbaycan dövlətinin özü belə əməlli-başlı formalaşmamışdı...

Bəli, indi vəziyyət tamam dəyişib. Rusiya "sülhməramlı"ları "partizan" üsulları ilə keçmiş Dağlıq Qarabağa silah-sursat daşımağa davam etsələr də ordumuz demək olar ki, bütün bölgəni nəzarətə götürübdü. O ki qaldı "sülhməramlı"ların fironluğuna, ona da son qoyulacaqdır. Əslində elə bugünlərdə Rusiya Qırmızı Xaç Cəmiyyəti öz humanitar yükünü Ağdam yolundan göndərməklə "sülhməramlı"lar üçün də bir presedent yaratdı.

Onlar da daha anlamalıdırlat ki, Dağlıq Qarabağ Ermənistanın ərazisi və ya anklavı deyil, ona görə də onlar bütün əlaqələri İrəvanla qurmamalıdırlar. Bugünlərdə başqa bir adam yox, Rusiyanın Prezidenti Vladimir Putin bəyan etdi ki, Ermənistan özü Dağlıq Qarabağı Azərbaycanın suveren ərazisi kimi tanıyıb. Amma prezident V.Putin bunu ilk növbədə az qala, iki aydan bir dəyişdiyi generallarına, bölgədəki "sülhməramlı" kontingentin komandanlarına izah etsəydi çox yaxşı olardı.

Bir daha deyirik ki, onlar əlaqələrini Bakı ilə qurmalıdır, gəl, nə edəsən ki, bu otuz ildə Kreml Dağlıq Qarabağı daim Azərbaycanın nəzarətindən çıxarmağa çalışıb...

Amma bu oyunlar bitmək üzrədir, Dağlıq Qarabağ addımbaaddım öz sahibinə qayıdır. O ki qaldı bu bölgədəki ermənilərə və onların oyuncaq xuntalarına, onlar kütləvi şəkildə intihar etmək yolunu da tuta bilərlər, di gəl, bu, heç nəyi dəyişməyəcək, çünki qatar çoxdan gedib...



Milli Lavuazyenin doğuluşu

Zamin HACI
zaminhaci@gmail.com

Bu yaxında bir statistika görmüşdüm, sən demə, bizdə SSRİ dövrünə nisbətən, müstəqillik zamanı ali məktəblərin sayı artıbmış. 1990-cı ildə 10 neçəsə universitet varmış, indi 60-a yaxındır. Ancaq peşə məktəbləri azalıbmış. Haradasa 2-3 dəfə azalma vardı (dəqiq rəqəmlər yadımda qalmayıb, oxucular üzrlü saysın, sonra xəbərin linkini də tapa bilmədim).

Buradan belə nəticə çıxartmaq olar ki, indi bizdə ali təhsillilər peşə-texniki təhsillilərdən çoxdur? Yəqin ki. Guya ali təhsil alanlar artanda xoşbəxt olacağıq, bu rəqəm üzrə dünya səviyyəsindən geri qalırmışıq. Ancaq neyniyirik o ali təhsili ki, axırda universiteti bitirib elektrik, taksi sürən, malyar, suvaqçı və sairə işlər görməyə məcburuq? Faktiki, hər işin yeri tərsə-məzhəb düşüb. Ən pisi isə bir peşə məktəbini energetik ixtisası ilə bitirmiş elektrik ustası universitetin filologiya fakültəsini bitirən elektrikdən bacarıqlı ola bilərdi.

Dünən - 18 sentyabrda bütün zəhmətkeşlərimiz milli musiqi gününü qeyd etdilər. Guya biz bu günü bayram edərək Üzeyir Hacıbəyliyə hörmətimizi göstəririk. Statistikaya inansaq, əslində elədir. (Təbii, bu məqamda müdriklərdən birinin dahiyanə afyorizminin məqamıdır: "Statistika bikini kimi bir şeydir - lazım olanı örtür, mənasız şeyləri açıb göstərir"). Respublikamızda 300-dən çox musiqi məktəbi var. Təsəvvür edirsinizmi bu nə deməkdir? Hər rayona orta hesabla 3-dən çox musiqi məktəbi düşür. Sanarsan bütün azərbaycanlılar violençel, tar, skripka, piano, nə bilim, bəd ayaqda nağara çalmaq, muğam oxumaq, yallı getmək, şalaxo oynamaq xəstəsidir. İncəsənətin başqa növləri üzrə (rəssamlıq, kino, teatr və sairə) məktəblərimizin sayı bir əlin beş barmağı qədər olmaz. Düşünülmüş siyasətdirmi? Bilmirəm. Amma hər halda, özümüzə sual verməliyik: niyə biz ancaq oxumaq-oynamaq yolu ilə sənətə atdanırıq?

Riyaziyyat, fizika, biologiya, humanitar elmlər - tarix, ədəbiyat, insan hüquqları və sairə üzrə xüsusi məktəblər açmaq olmazmı? Guya valideynlərdə və uşaqlarda maraq yoxdur?

Hərçənd bizim manıslıq ehtirasımız da haradasa saxtadır. Musiqi məktəblərinin göbələk kimi artdığı vəziyyətdə son 20 ildə hansı dünya şöhrətli bir yana, Qafqazda tanınan bəstəkar yetişdirmişik? Hansı opera səsimiz dünya arenalarını fəth edir? Bəstəkarlıq ixtisasını bitirən uşaqlar harada, nə üzərində küllənir? Mahnılar hanı?

Mən 40 ildir "Hardasan səadət" mahnısına qulaq asıram küçədə, toyda, restoranda, təyyarədə, raketdə, gəmidə və sairə... Niyə bizim manıslar utanmır? Niyə bezmirsiniz?

Əlbəttə, mən musiqi məktəblərinin çoxluğunun əleyhinə deyiləm. Lap istəyirsiniz hər məhəllədə birini açın. Etirazım balansın pozulmasınadır. Tarazlıq lazımdır. Bir əlimiz zurna çalanda, o biri əlimiz düstur həll eləməlidir. Bir üzümüz muzkomediyada şit tamaşalara güləndə, o biri üzümüz tarixi faciələrə ağlamalıdır. Şair demişkən: "Ölüm sevinməsin qoy, Ömrünü vermir bada"... Bəlkə də sitatın heç yeri yox idi, ancaq pozmağa əlim gəlmədi, yola verin getsin.

Qayıdaq mövzuya. Mövzu isə küçədə rastlaşdığım dilənçidir. Hadisə Bakıda olub, özüm dəqiq yerini yazmıram - heç kimin çörəyinə bais olmaq istəmirəm, o cümlədən dilənçilərin. Uzun sözün qısası, dayanacaqda gözləyirdim, bir gənc oğlan yaxınlaşdı: "Əmi, üzr istəyirəm, (dilənçilərimiz arasında peşəkarlıq yüksəlir, yəqin buna sevinməliyik, hərdən mən çox mədəni, ziyalı dilənçilər görürəm - Z.H.), tələbəyəm, acmışam, mənə dönər almaq üçün pul verə bilərsinizmi?"

Bəlkə birbaşa dönər şərti olmasa xırda pul verib başımdan edərdim, dönər isə bizim üçün ciddi xərcdir, o üzdən tələbəmizi yoxlamaq qərarına gəldim. Harada, hansı ixtisas üzrə oxuduğunu, dekanı, rektoru soruşdum, birini də düz demədi. Ağzına gələn adları, dərhal çəkirdi, bəlkə mənim də onları tanımadığımı zənn edirdi. Dedim niyə yalan danışırsan, guya incidi: "Yalan danışmıram, pul vermək istəmirsiniz, verməyin". Əlbəttə, mənim ona BDU rektorunun Fərid Qayıbov olmadığını (belə demişdi) isbat etməyə nə vaxtım, nə həvəsim vardı, o üzdən dedim: "Yaxşı, hesab edək düz danışırsan. O zaman sulfat turşusunun formulasını söylə, sənə 10 manat verirəm" (yəqin anladınız, guya BDU kimya fakültəsində oxuduğunu söyləmişdi). Aradan çıxdı - qısa yazsam.

Ümid edirəm gələn dəfəyə həmin formulanı öyrənər. Yoxsa elə adi şeyləri bilməyən kimyaçı bizim nəyimizə lazımdır?

Öyrədəcəyik. Bəlkə də o bir Lavuazye olacaq.



Bir addım qaldı: İrəvan ya Bakı deyəni imzalayacaq, ya... imzalayacaq!

Bölgədə Azərbaycan-Türkiyə tandemini yenəcək qüvvə yoxdur, olmayacaq; tədricən "tilov yemi"nə çevrilən Ermənistan Bakının şərtlərini qəbul etməsə, 29.7 min kv km-lik ərazidə də mövcud olmayacaq...

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan BMT Baş Məclisinin sessiyasına yollanmazdan öncə Nikol Pasinyan hökumətinə ağlını başına yığmaq üçün daha bir təklif göndərib: erməni rəhbərin də qatılması istənilən "dördlü masa" - "Türkiyə masası". Buna İrəvanın unikal şansı da demək olar. Niyə?

Əvvəla, Ərdoğan açıqlamasında açar bir cümlə işlədib. Qeyd edib ki, "regionla bağlı vəziyyəti bu regiondan uzaq liderlərin yox, regionda olanların müzakirə eləməsi vacibdir". Sözsüz ki, bu fikir boşuna deyilməyib və ilk növbədə öz qapıbir qonşularını qoyub çox-çox uzaqlarda, okeanın o tayında (ABŞ, Fransa) əbəs yerə xoşbəxtlik axtaran, Ermənistanı yad siyasi-hərbi qüvvələrin "poliqonu"na döndərən Paşinyan iqtidarına ünvanlanıb.

Təklifin nəticəsi nə olacaq? Hələlik söyləmək çətindir. Çünki vurğulandığı kimi, axır vaxtlar rəsmi İrəvan bölgədən xeyli uzaqda olan, bölgəmizə faktiki dəxli olmayan paytaxtlara, güc mərkəzlərinə o dərəcə aludə olub ki, daha "ayağının altını" belə görmür. Əlbəttə, Rusiya da "süddən çıxmış ağ qaşıq" deyil. Amma gerçək budur ki, regionda partlayış həddinə gətirən məhz Nikol Paşinyan hökumətinin davam edən səbatsız siyasəti, sülh oyunbazlığı, həmçinin "blokada", "etnik təmizləmə" nağılları ilə kövrək sülh prosesini darmadağın eləməsidir...

*****

Politoloq Asif Nərimanlı hesab edir ki, Ərdoğanın dördtərəfli (Türkiyə, Azərbaycan, Rusiya və Ermənistan) görüş təklifi regiondankənar oyunçuların bölgədəki proseslərdən kənarlaşdırmaq məqsədi güdür: "44 günlük müharibədən dərhal sonra bu prosesdə Türkiyə və Rusiya əsas oyunçu olsa da, sonrakı dövrdə, xüsusilə Ukrayna müharibəsindən sonra Fransa, ABŞ və Avropa İttifaqı oyuna aktiv daxil oldu; bu Rusiya qarşısında bir çox məsələdə Bakının manevr imkanını genişləndirsə də, əsasən Ermənistana sülh sazişindən yayınmaq imkanları qazandırdı".

Onun qənaətincə, Ankara və Moskva prosesi yenidən ələ almaq istəyir və bu, Fransadan sonra ABŞ-ın da vasitəçilik məsələsində geriyə düşməsinə zəmin yarada bilər - xüsusilə Vaşinqtonun Qarabağla bağlı son mövqeyindən sonra.

Təhlilçinin sözlərinə görə, Türkiyə liderinin təklifinə Bakı və Moskva razı olacaq, İrəvanın isə bundan imtina edəcəyi, görüşə gəlsə belə, razılaşmalardan qaçacağı gözləntisi daha çoxdur. "Belə vəziyyətdə isə bölgədə yeni eskalasiya qaçılmaz olacaq və Ermənistan ciddi itkilər verəcək. İrəvanı yaxın perspektivdə regiondan kənar ölkələrin qoruması praktiki olaraq çətindir. Balansı poza biləcək yeganə ölkə İrandır. Lakin Tehranın siyasi xəttində müşahidə edilən korrektlər Paşinyan üçün çıxılmaz vəziyyəti yetişdirir", - deyə o əlavə edib.

Ərdoğanın "dördlü masa" təklifinə N.Paşinyanın ilkin reaksiyası isə artıq məlumdur və gözlənilən, yəni yetərincə ürkək sayıla bilər. Sitat: "Bizə müxtəlif təkliflər gəlir. Bu, yeganə fikir deyil, mən yalnızca bunu ayırmaq istəmirəm. Bütün bunları kompleks şəkildə nəzərdən keçirmək lazımdır".

Bu isə o deməkdir ki, Ermənistan baş naziri "dördlü masa"ya oturmaq üçün yəqin ki, uzaqdakı havadarlarının iznini alacaq. Yəni yenə qiymətli zaman itkisi. Özəlliklə də yavaş-yavaş "tilov yemi"nə çevrilən bədbəxt erməni xalqı üçün...

*****

"Ermənistanın Suriyaya çevrilməsinə çox az - bir addım qalıb".

Bunu isə **Ermənistan Xarici İşlər Nazirliyinin keçmiş baş katibi Vaaqn Məlikyan** deyib.

"Vəziyyət o qədər gərgindir ki, Suriyaya çevrilməyə bir addım qalıb və bunun səbəbi səriştəsiz diplomatiyadır. Dünyada durum çox həssasdır, əvvəlki dünya düzəni artıq yoxdur. Dünya çoxqatlı və çoxşaxəli dəyişikliklərə məruz qalır", - erməni diplomat bildirib.

Məlikyan Ermənistanın Qərb, İran və Rusiya arasında təhlükəli oyunlara getdiyini söyləyib. "Rusiya-Ukrayna münaqişəsinin nəticəsi nə olur-olsun, kifayət qədər yeni və ciddi oyunçular ortaya çıxıb, yeni çağırışlar gətirdilər, ortaya yeni iddialar qoydular. Bizdən başqa hamı öz mövqeyini seçdi. Üstəgəl, çox təhlükəli oyunlar oynamağa başlamışıq, bunun fəsadları haqqında bir fikir yoxdur. Təkcə Qarabağa yox, Ermənistana da tezliklə "qış" gələcək", - sabiq baş katib vurğulayıb.

Qısası, Ermənistanın tam boşuna vaxt itirir. Çünki enində-sonunda Bakı-Ankara tandeminin dediyi olacaq. Ya olacaq, ya da... olacaq! Ağdam və Laçın yollarının Bakının şərtləri əsasında, paralel açılması bunun növbəti barız təsdiqidir. Habelə Qarabağdakı qanunsuz silahları dəstələrin tərk-silah edilməsi ilə bağlı gələn optimist xəbərlər. Bəzi məlumatlara görə, separatçılardan yığışdırılan ağır hərbi texnikanın bir azdan Laçın yolu ilə Qarabağdan çıxarılmasının da şahidi ola bilərik.

Eləcə də sülh müqaviləsi məsələsində Ermənistan ya Bakının 5 məlum şərti (prinsipi) əsasında sülh sənədi imzalayacaq, ya da Ermənistan adlı saxta dövlət heç 29.7 min kv km-lik ərazidə də mövcud olmayacaq və Suriyaya çevriləcək. Seçsinlər...

❑ **Siyasət şöbəsi,**
"Yeni Müsavat"

Nə "beşli", nə də "şeşli" format, Ərdoğan formatı!

Türkiyə masasından əsas gözlənti; Ankaranın bölgədə dinc tənzimlənmə ilə bağlı təşəbbüsünə balta çalmaq istəyənlər də az deyil



Sahib Alıyev: "İran da əlindən gələni etməyə çalışacaq ki, dördlü formatda keçiriləcək danışıqları pozsun"

Tural İsmayılov: "Ermənistanın havadarları Türkiyənin vasitəçilik missiyasını provokasiya edəcək"

Qardaş Türkiyə hər zaman olduğu kimi, bölgədə sülh və rifahın yaranması, eyni zamanda Azərbaycanın milli maraqlarının müdafiəsi, Ermənistanla münasibətlərdə ədalətli həll yolunun tapılması istiqamətində təşəbbüslərini davam etdirir.

Xəbər verildiyi kimi, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkiyə, Azərbaycan, Rusiya və Ermənistan rəhbərləri ilə dördtərəfli görüş keçirməyi təklif edib. Türkiyə Prezidenti bunu BMT Baş Assambleyasının iclasına getməzdən əvvəl jurnalistlərə açıqlamasında deyib. O bildirib ki, regionla bağlı vəziyyəti bu regiondan uzaq olan liderlərin yox, regionda olanların müzakirə etməsi vacibdir. "Biz Rusiya Prezidenti Vladimir Putinin, Azərbaycan Prezidenti İlham Əliyevin, mənim və Ermənistanın Baş naziri Nikol Paşinyanın iştirakı ilə dördlü formatda görüşün keçirilməsini təklif etmişik ki, addımı ona görə ataq. Hələ bizə bu təkliflə bağlı münasibət bildirilməyib. Bu məsələni Azərbaycan Prezidenti İlham Əliyevlə də danışacağıq. Vəziyyəti yaxından izləyəcəyik", - Ərdoğan deyib.

Təklifə Qərbin (ABŞ-ın), qonşu İranın qıcıqlı (qısqanc) reaksiyası mümkünmü və bu format nə dərəcədə səmərəli ola bilər, əgər nəzərə alsaq ki, üstəlik, Nikol Paşinyan "böyük bacısı" Makronsuz heç "yerə" addm atmır - "beşli format"dakı kimi (Azərbaycan-Ermənistan-Almaniya-Fransa-AB). Yeri gəlmişkən, gələn ay - oktyabrın 5-də İspaniyada bu formatda liderlərin ikinci görüşü baş tutmalıdır. Əlbəttə, ən idealı Bakı və İrəvan arasında birbaşa danışıqlar olardı. Ancaq yenə "beşli", nə də "altılı" ("şeşli") formatlardansa (3+3) Ərdoğan formatı - "dördlü" daha məqbul, cəlbedici və işlək görünür. Birinci ona görə ki, Türkiyə və Rusiya uzaq ABŞ, Fransa və Avropa Birliyindən fərqli olaraq, bilavasitə bölgədədir - real təsir və təzyiq rıçaqları ilə birgə.

Rəsmi İrəvanın dinc tənzimlənmə ilə bağlı təşəbbüslərə qarşı çıxması heç şübhəsiz ki, vaxt qazanılması məqsədindən irəli gəlir. Ermənistan rəhbərliyi revanşist qüvvələrin, həmçinin Ermənistandan Azərbaycana qarşı "maşa" kimi istifadə edən paytaxtların təzyiqlərindən xilas olmaqdan, bununla da hakimiyyətinin ömrünü uzatmaqdan ötrü sülh sazişini imzalamağa tələsmir. Elə bugünlərdə N.Paşinyan sülh sənədini imzalamağa "hazır" olduğunu iddia etsə də, davamında səsləndirdiyi təxribatçı fikirlər və yersiz ittihamlar konfrontasiyanın dərinləşməsinə xidmət edir. Ermənistan rəhbərliyi gərginləşdirmə kursunu davam etdirdiyi halda, Türkiyənin normallaşma ilə bağlı təşəbbüslərinə çətin ki, razılıq versin, həm də burada "böyük bacı" Fransanın mövqeyinin həlledici rola malik olduğu şübhəsizdir. Bu mənada qarşıdakı görüşdə də hər hansı irəliləyiş gözlənilən deyil, xüsusilə də Qərbin moderatorluğu ilə keçirilən görüşlərə Rusiyanın qısqanc münasibəti hər kəsə bəllidir. Bu arada Tükiyənin "Takvim" qəzeti də rəsmi İrəvanın pozuculuq fəlaiyyətinə işıq salıb. "Cənubi Qafqazda düşünülmüş, məqsədyönlü və planlı şəkildə gərginlik yaradılır. Ermənistanın baş naziri Nikol Paşinyan ABŞ-ın köməyi ilə gərginliyi artırır. Ermənistan ordusu qardaşlarımız Azərbaycana qarşı bədnam hücumlarını sürətləndirir, ABŞ və Ermənistan birgə təlimlər keçirir" - qəzet yazıb. Rusiya ilə heç vaxt olmadığı qədər gərgin münasibətlərdə olan Ermənistan Qərbdəki havadarlarından aldığı sifariş hesabına daha da həvəslə gərginliyi tətikləyir, paralel olaraq Azərbaycanla danışıqların pozulması və iflic olması istiqamətində. Artıq əksər ekspertlər bu fikirdədir ki, bəzi aparıcı Qərb paytaxtlarının məqsədi növbəti gərginliyin baş verməsi halında bölgəyə girişlərini təmin etməkdir, Ermənistanı da buna vadar etməyə çalışırlar.

Təsadüfi deyil ki, Ərdoğan "regionla bağlı vəziyyəti bu regiondan uzaq liderlərin yox, regionda olanların müzakirə etməsini" vacib saydığını söyləyib. İkincisi, vasitəçilərin bolluğu bir-biri ilə toqquşan maraqlar bolluğu deməkdir. Xüsusən də Qərb-Rusiya qarşıdurması fonunda. Üstəgəl, bədnam Minsk Qrupunun "təcrübəsi" var. Bundan əlavə, ABŞ Senatındakı son anti-Azərbaycan dinləmələri artıq ABŞ-ın da əsl riyakar simasını göstərdi. Dövlət Departamenti rəsmisi Yuri Kimin ermənisiz vasitəçi olmadığını ortaya qoydu. Sanki bayırda 2023 yox, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü saymayan ermənipərəst Minsk Qrupunun "meydan suladığı" illərdir. Bu arada Ərdoğanın "dördlü masa" təklifinə Nikol Paşinyanın ilkin reaksiyası belə olub. Sitat: **"Bizə müxtəlif təkliflər gəlir. Bu, yeganə fikir deyil, mən yalnızca bunu ayırmaq istəmirəm. Bütün bunları kompleks şəkildə nəzərdən keçirmək lazımdır"**. Nikol yenə "blokada", "Dağlıq Qarabağda böhran" bayatılarını oxuyub. Həmçinin həyasızcasına bildirib ki, Laçın yoluna ayırdığımız diqqəti sülh danışıqlarına ayırsaydıq, daha yaxşı olardı. Bu yerdə haqlı sual ortaya çıxır: görəsən, buna kim mane olur?..

"Azərbaycan Prezidenti İlham Əliyevlə 5 oktyabrda Qranada şəhərində keçiriləcək görüşdə hər hansı sənəd imzalanması planlaşdırılmır". Bunu da Ermənistanın baş naziri söyləyib. **"Həqiqətən demək istərdim ki, bəli, Qranadada sənədin imzalanacağını gözləyirik, amma təəssüf ki, yox. Ümid edirik ki, intensiv danışıqlar davam edəcək və problemin həllinə gələcəyik"**, - Paşinyan vurğulayıb. Ekspertlərimizə müraciət etdik, Türkiyənin prosesdə iştirakı nə vəd edir? Ərdoğanın təşəbbüsü dəstəklənəcəkmi? Türkiyə liderinin təklifi hansı zərurətdən doğub və niyə məhz indi?

Deputat Sahib Alıyev "Yeni Müsavat"a bildirdi ki, Türkiyə Prezidenti cənab Ərdoğanın bu dördlü həll təklifi regionda normallaşma prosesinin baş verməsi və ABŞ-la Fransanın körüklədiyi savaş təhlükəsinin aradan qalxması üçün ən optimal danışıqlar formatıdır: "Çünki 44 günlük savaşdan sonra heç bir böyük dövlətin Türkiyə və Rusiya qədər region üzərində təsiri yoxdur. Amma mən bilmirəm, təklif cənab Ərdoğanın sentyabrın 4-də Soçidə Vladimir Putinlə görüşündə əldə edilmiş hansısa razılaşmadan doğur, yoxsa bu, qarşı tərəf üçün bir yenilik olacaq. Əgər ikinci variantdırsa, Müdafiə Nazirliyinin xəbər bülletenində "Ağdam-Stepanakert marşrutu", "Qarabağın paytaxtı", "Azərbaycanın tətbiq etdiyi blokada səbəbindən" ifadələri yer alan bir ölkənin sahədə vəziyyətin müsbət yöndə dəyişməsi yönündə addım atılmadan və növbəti dəfə fakt qarşısında qoyulmadan regionda sülhün yaranmasına dəstək verəcəyinə əmin deyiləm". **Deputat cənub qonşumuzun və digər anti-Azərbaycan paytaxtların bu təşəbbüsə müsbət yanaşmayacağı qənaətindədir:** "Təbii, İran da əlindən gələni etməyə çalışacaq ki, dördlü formatda keçiriləcək danışıqları pozsun. ABŞ və Fransa haqda da danışmağa dəyməz. Regionda qarşıdurmanın qalmasının maraqlarına daha çox cavab verdiyini düşünən bütün böyük dövlətlərin hamısının təsiri altında olan Ermənistanın baş nazirinin cənab Ərdoğanın təklifinə konkret cavab verməməsi də məhz bundan irəli gəlir". **Amma S.Alıyev ümid edir ki, Rusiya 2021-ci ildə buraxdığı səhvlərdən düzgün nəticə çıxaracaq:** "O zaman bu dövlət istəsəydi, burada sülh yaranmışdı və regiondan kənardakı güclərin Ermənistan üzərində təsirləri indiki qədər güclü olmayacaqdı".

Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri, politoloq Tural İsmayılov hesab edir ki, cənab Ərdoğanın təklifi tam reallığı əks etdirir: "Bu gün Azərbaycan və Ermənistan arasında gərginlikdən istifadə edib bölgədə sabitliyi pozan qüvvələr var. Azərbaycan heç vaxt hansısa platformalarda danışıqlardan imtina etməyib. Qranada görüşü də Azərbaycan və Ermənistan arasında yaxınlaşma və münasibətlərin inkişaf etdirilməsi üçün mühüm ola bilər. Amma Türkiyə liderinin təklif etdiyi format 3 cəhətdən önəmlidir: birinci, regionda əsas qüvvələr Türkiyə və Rusiyadır; ikinci, Türkiyə və Rusiya bir sıra məsələlərlə bağlı fərqli coğrafiyalarda uğurlu əməkdaşlıq modelinə malikdir; üçüncü, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması və yekun sülhün əldə edilməsi üçün Ərdoğanın təklif etdiyi model daha uğurlu görünür. Bundan başqa, rəsmi Ankaranın təşəbbüsləri digər qüvvələr kimi Ermənistanın manipulyasiyasını istisna edir". **T.İsmayılov şübhə etmir ki, Türkiyənin prosesdə iştirakı siyasi riyakarlığa zərbə vuracaq:** "Əlbəttə, Ermənistanın havadarları Türkiyənin vasitəçilik missiyasını provokasiya edəcəklər. Ermənistan özü də forpost kimi bu sabotajda vintcik olacaq. Amma Türkiyə aktiv siyasi güc nümayiş etdirərək prosesin istədiyimiz nöqtəyə çatmağına vasitəçi ola biləcək".

İstisna deyil ki, Türkiyə lideri BMT Baş Assambleyasında da bu təşəbbüsü yüksək tribunadan dilə gətirsin. Eyni zamanda onun yaxın günlərdə Azərbaycan Prezidenti ilə 4-lü formatla bağlı təşəbbüsü müzakirə edəcəyi də gözlənilməndir. Azərbaycanın bu təşəbbüsə birmənalı şəkildə dəstək verəcəyi şübhə doğurmur, çünki hələ Minsk Qrupu mövcud olduğu dönəmdə rəsmi Bakı Türkiyənin prosesdə aktiv iştirakını istəmişdi...

❑ **Elşad PAŞASOY,**
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 166 (8302) 19 sentyabr 2023

Dünyada ucuzlaşan ərzaq Azərbaycanda bahalaşır - səbəblər

Ekspertlər deyir ki, başlıca amil kəskin inhisarlaşmadır; söhbət həm idxal, həm topdan, həm də pərakəndə satışdan gedir; Rəqabət Məcəlləsi məsələni həll edəcəkmi...

Dünyada son bir ildə ərzaq qiymətlərində 11,8 faiz enmə müşahidə edilib. BMT-nin məlumatına əsasən, bu dövrdə ət və ət məhsulları 5,4 faiz, süd və süd məhsulları 22,4 faiz, taxıl məhsulları 14,1 faiz, bitki yağları 23 faiz ucuzlaşıb. Son bir ildə yalnız şəkər bahalaşıb. Şəkərin qiyməti 34 faizdən çox yüksəlib.



Ərzaq qiymətlərində enmə aylıq müqayisədə də baş verib. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) açıqladığı Ərzaq Qiymətləri İndeksi hesabatına əsasən avqust ayında indeks orta hesabla 121,4 bənd təşkil edib. Bu, iyul ayı ilə müqayisədə 2,1 faiz, 2022-ci ilin mart ayında əldə edilən pik göstəricidən isə 24 faiz aşağıdır.

FAO-nun məlumatına görə, taxıl qiymətləri indeksi iyul ayı ilə müqayisədə 0,7 faiz azalıb. Avqust ayında beynəlxalq buğda qiymətləri bir sıra aparıcı ixracatçıların mövsümi tədarükünün artması fonunda 3,8 faiz, beynəlxalq yemlik taxıl qiymətləri isə Braziliyada rekord məhsulun əldə olunması və ABŞ-da yığımın tezliklə başlamasına görə güclü qlobal qarğıdalı tədarükü fonunda 3,4 faiz ucuzlaşıb. İyulda buğda qiymətləri "Taxıl sazişi"nin dayanması fonunda son 9 ayda ilk dəfə 1,6 faiz bahalaşmışdı.

FAO Bitki Yağı Qiymətləri İndeksi avqustda 3,1 faiz azalaraq iyulda 12,1 faiz kəskin artımı qismən kompensasiya edib. Hesabatda qeyd edildiyi kimi, günəbaxan yağının dünya qiymətləri "qlobal idxal tələbinin zəifləməsi və iri ixracatçıların yaxşı təklifi nəticəsində" ay ərzində demək olar ki, 8 faiz ucuzlaşıb.

İndeksin ümumi azalması və əsas ərzaq məhsullarının qiymətləri fonunda FAO-nun düyü qiymətləri indeksi iyul ayından bu yana 9,8 faiz artaraq son 15 ilin nominal maksimumuna çatıb. Mütəxəssislərin izah etdiyi kimi, bu, dünyanın ən böyük düyü ixracatçısı olan Hindistanın düyü ixracına qoyduğu qadağalardan qaynaqlanır.

Avqustda şəkər qiymət indeksi iyul ayı ilə müqayisədə 1,3 faiz artıb ki, bu da bir il əvvəlki qiymətdən orta hesabla 34 faiz yüksəkdir, FAO bu tendensiyanın səbəbini "El Nino fenomeninin şəkər qamışı bitkilərinə təsiri ilə bağlı artan narahatlıqlarla", eləcə də Taylanddakı quraqlıqla izah edir.

FAO qeyd edir ki, şəkər qiymətlərinin daha sürətlə artımının qarşısını Braziliyada yaxşı məhsul əldə olunması, eləcə də aşağı etanol qiymətləri və Braziliya realının zəifləməsi alır.

Azərbaycanda adıçəkilən əsas məhsullardan yalnız buğda və buğda ununun qiymətində, həmçinin çörəkdə ucuzlaşma var. O da qlobal bazardakı ucuzlaşmadan iki dəfə az. Belə ki, Dövlət Statistika Komitəsinin hesablamalarına əsasən, avqust ayında Azərbaycanda çörək və bulka məmulatları ötən ilin avqustu ilə müqayisədə 5,8 faiz, bu ilin yanvar-avqustunda isə ötən ilin eyni dövrünə nəzərən 13 faiz bahalaşıb. Ötən ilin 8 ayında buğdanın orta idxal qiyməti 1 ton üçün 358,7 dollar, bu ilin eyni dövründə isə 274,7 dollar təşkil edib. Bu, idxal olunan buğdanın qiymətinin son bir ildə 23,4 faiz azalması deməkdir. Lakin bu azalmanı biz son məhsullarda çox cüzi səviyyədə hiss edirik, undan hazırlanan makaron məmulatlarında isə əksinə, bahalaşma var. 2023-cü ilin avqust ayında Azərbaycanda ümumi istehlak qiymətləri indeksi iyul ayı ilə müqayisədə 0,4 faiz azalma göstərsə də, 2023-cü ilin yanvar-avqust aylarında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 11,7 faiz artıb. 2023-cü ilin avqust ayında ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi iyul ayı ilə müqayisədə 0,9 faiz azalıb, 2023-cü ilin yanvar-avqust aylarında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə isə 13,4 faiz artıb.

Bu arada "Fitch Ratings" beynəlxalq reytinq agentliyi Azərbaycanda bu il və 2024-cü ildə inflyasiyanın azalacağını proqnozlaşdırıb. Bildirilib ki, illik inflyasiyanın azalması Azərbaycanın əsas ticarət tərəfdaşları olan Türkiyə və Rusiyaya münasibətdə manatın nominal effektiv məzənnəsinin artması və dünya bazarında ərzaq məhsullarının qiymətlərinin azalması ilə bağlıdır. Bununla belə, ərzaq və qeyri-kommersiya mallarına (əsasən xidmətlər) təzyiq güclü olaraq qalır: **"Biz 2023-cü ilin sonunadək illik inflyasiyanın Azərbaycan Mərkəzi Bankının hədəf diapazonunun yuxarı həddinə (4±2%) yaxınlaşacağını, 2023-cü ildə orta inflyasiyanın 10,1 faizə, 2024-cü ildə isə 6 faizə enəcəyini proqnozlaşdırırıq".**

Qeyd edək ki, Prezident İlham Əliyevin 2023-cü ilin birinci yarısının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə Azərbaycanda inflyasiyanın yüksək olmasını narahatlıq doğuran hal kimi xüsusi qeyd edib. Dövlət başçısı inflyasiyanın 13 faizə yaxın olmasında obyektiv amillərlə yanaşı, subyektiv amillərin də rol oynadığını bildirərək, sonuncuların araşdırılmasının gərəkdiyini vurğulayıb.

Ardınca iyulun 15-də Baş nazir Əli Əsədov Azərbaycanda inflyasiyanın iqtisadi artım üçün məqbul səviyyəyə endirilməsinin təmin edilməsi, inflyasiya proseslərini və onun səbəblərini kəmiyyət və keyfiyyətcə qiymətləndirməyə imkan verən təhlil və monitorinq sisteminin daha da təkmilləşdirilməsi, eləcə də bu sahədə qurumlararası koordinasiyanın gücləndirilməsi məqsədilə İşçi qrupun yaradılması barədə sərəncam imzalayıb.

İyulun 21-də Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədovun sədrliyi ilə İşçi qrupun ilk iclası keçirilib. Açıqlanan məlumatdan aydın olur ki, iclasda istehlak səbətinə daxil olan məhsul və xidmət növü üzrə qiymətlərin, o cümlədən kənd təsərrüfatı və sənaye məhsullarının istehsalçı qiymət indekslərində dəyişmələrin daha dərindən araşdırılması, ticarət tərəfdaşlarında inflyasiya, eləcə də idxal inflyasiyası ilə bağlı olaraq idxal olunan məhsulların qiymət indeksləri və daxili bazarda qiymətlərə təsiri, inflyasiyanın artırıcı və azaldıcı faktorları və həyata keçirilən antiinflyasiya tədbirləri, habelə sağlam rəqabətin qorunması, daxili bazarda qiymətlərlə manipulyasiyaya yol verilməməsi və antiinhisar tədbirlərinin gücləndirilməsi məsələləri geniş müzakirə olunub. İclasın yekununda müzakirə olunan məsələlər barədə aidiyyəti qurumlara konkret tapşırıqlar verilib.

İclasdan sonra verilən tapşırıqların icrası istiqamətində hansı işlərin görüldüyü hələ ki məlum deyil. Lakin məlum olan budur ki, artıq ölkədə istehsalçı qiymət indekslərində artım başlayıb. Belə ki, 2023-cü ilin avqust ayında əvvəlki ayla müqayisədə kənd təsərrüfatı məhsullarının istehsalçı qiymət indeksi 0,4 faiz, o cümlədən bitkiçilik məhsulları üzrə 0,9 faiz artıb, heyvandarlıq məhsulları üzrə dəyişməyib.

Qeyri-neft-qaz sənayesində istehsalçı qiymət indeksi iyula nəzərən 1 faiz azalıb, neft-qaz sənayesində isə 6,1 faiz artıb. Bu, dünya bazarında neft və qazın qiymətində müşahidə olunan bahalaşma ilə bağlıdır. Qeyri-neft-qaz sənayesinin emal bölməsində isə bu göstərici 0,1 faiz artıb.

Bundan əlavə, iyul ayında idxal olunan məhsulların qiymət indeksi əvvəlki ayla müqayisədə 0,2 faiz, əvvəlki ilin müvafiq ayı ilə müqayisədə 13,6 faiz, 2023-cü ilin yanvar-iyul aylarında əvvəlki ilin müvafiq dövrünə nisbətən 18,1 faiz artıb.

İstehsalçı və idxal qiymət indekslərindəki artım yaxınmüddətli dövrdə ölkədə inflyasiyanın sürətlənməsi üçün zəmin formalaşması deməkdir.

Hazırda Azərbaycanda kənd təsərrüfatı məhsullarının yığımı davam edir. Bu il əkin sahələrində 10 faiz civarında azalmanın, həmçinin əkin, səpin və yığım zamanı əlverişsiz iqlim şərtlərinin qeydə alınmasına rəğmən, rəsmi statistika əksər aqrar məhsulların istehsalında artıma dair məlumat yayır. Belə ki, Statistika Komitəsinin məlumatına əsasən, sentyabr ayının 1-nə kimi tarlalardan qarğıdalı da daxil olmaqla, 3000,7 min ton və ya əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,1 faiz çox dənli və dənli paxlalı bitkilər, 868,5 min ton (0,5 faiz çox) kartof, 1486,8 min ton (3,1 faiz çox) tərəvəz, 430,9 min ton (5,4 faiz az) bostan məhsulları, 494,9 min ton (3,3 faiz çox) meyvə və giləmeyvə, 73,6 min ton (əvvəlki ilin müvafiq dövrü ilə eyni səviyyədə) üzüm, 22,4 min ton (0,3 faiz çox) günəbaxan, 9,0 min ton (30,0 faiz çox) şəkər çuğunduru, 885,4 ton (16,4 faiz çox) yaşıl çay yarpağı yığılıb.

Sahələrin 98,3 faizindən(542,6 min ha) 1 milyon 833,6 min ton buğda yığılıb ki, bu da ötən illə müqayisədə 5,3 faiz çoxdur. Bu il buğda üzrə orta məhsuldarlıq keçən ilki 31,9 sentnerdən 33,8 sentnerə yüksəlib.

2023-cü ilin yanvar-avqust aylarında ölkədə quş əti də daxil olmaqla, diri çəkidə 375,4 min ton ət, 1482,0 min ton süd, 1481,2 milyon ədəd yumurta istehsal olunub. 2022-ci ilin müvafiq dövrünə nisbətən ət istehsalı 3,1 faiz, süd istehsalı 1,7 faiz, yumurta istehsalı 11,9 faiz artıb.

Yerli istehsal artır, qlobal bazarlarda qiymət düşür, amma Azərbaycanda inflyasiya, xüsusilə də ərzaq qiymətlərində azalma çox cüzidir. Əksər ekspertlərə görə, bunun başlıca səbəbi Azərbaycan bazarındakı kəskin inhisarlaşmadır. Söhbət həm idxal, həm topdan, həm də pərakəndə satışdan gedir. Hər üç mərhələdə uzun illərdən bəridir oturuşan inhisarlar qiymətlərin enməsinə imkan vermir. Bugünlərdə Milli Məclisin müzakirəsinə göndərilən Rəqabət Məcəlləsinin qəbulundan sonra inhisarlaşmaya qarşı ciddi addımların atılması gözləntiləri var...

❑ **Dünya SAKİT,**
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 166 (8302) 19 sentyabr 2023

İrəvan seçkilərində Paşinyanın "Pirr qələbəsi" hansı nəticələri verəcək - təhlil

Ermənistan Mərkəzi Seçki Komissiyası İrəvan meriyasına keçirilən seçkilərdə səslərin elektron hesablanmasını başa çatdırıb.

Musavat.com erməni mediasına istinadən xəbər verir ki, 475 seçki məntəqəsinin hamısının nəticələrinə yekun vurulub. 28,46% kimi rekord aşağı seçici fəallığı ilə (824,250 seçicidən yalnız 234,553-ü seçki qutusuna gedib) hakim "Mülki Müqavilə" Partiyası "Pirr qələbəsi" qazanıb. Seçicilərin 32,57%-i (75 463 səs) ona səs verib ki, bu da bu hakim siyasi qüvvəyə Ermənistan paytaxtının merini müstəqil şəkildə seçmək imkanı vermir.

Yada salaq ki, beş il əvvəl "məxməri inqilab"dan eyforiya fonunda keçirilən paytaxt seçkilərində Paşinyanın partiyası 81,06% (294 109 səs) toplamışdı. Bununla onun elektorat dəstəyinin xeyli azaldığı görünür...

Sentyabrın 17-də keçirilən seçkilərdə inamlı ikinci yeri, Paşinyanın keçmiş müttəfiqi Ayk Marutyanın başçılıq etdiyi, mötədil qərbyönlü fikirlərini gizlətməyən Milli Tərəqqi Partiyası tutub. Seçicilərin 18,89%-i (43 765 səs) "Milli Tərəqqi"yə səs verib.

Üçüncü yerdə 15,43% (35 739 səs) ilə rusiyayönlü "Ana Ermənistan" bloku qərarlaşıb. Dördüncü yeri Ermənistanın KTMT-dən və Aİİ-dən çıxmasının tərəfdarı olan "Respublika" partiyası tutub. Bu partiya çox güman ki, ölkədə hakim partiya ilə koalisiya yaradacaq. Onu seçicilərin 11,32% (26,236) dəstəkləyib. Əsas sürpriz 9,68% (22 431) ilə beşinci yerdə qərarlaşan "İctimai rəy" partiyasının yüksək nəticəsi ilə bağlıdır.

Qalan 9 siyasi qüvvə 5 il müddətinə seçilən İrəvan Ağsaqqallar Şurasına daxil olmayıb. Onların arasında səslər azalan ardıcıllıqla aşağıdakı kimi bölüşdürülüb:

"Yaşayacaq ölkə" - 3,64% (8425),

"Parlaq Ermənistan" - 1,8% (4174),

"Qələbə" - 1,71% (3959),

"Ədalətli Ermənistan" - 1,12% (2595),

Ermənistanın Avropa Partiyası - 1,11% (2572),

"Demokratik konsolidasiya" - 1,01% (2348),

"Vətənin gücü" - 0,74% (1706),

"Vahid Ermənistan" - 0,55% (1282),

"Sosial ədalət naminə" - 0,34 (780).

Paşinyan iqtidarı İrəvan seçkilərində kifayət qədər ciddi zərbə aldı.

Musavat.com erməni mediasına istinadən xəbər verir ki, bu barədə "Ana Ermənistan" blokunun lideri Andranik Tevanyan "Facebook" səhifəsində İrəvan Ağsaqqallar Şurasına (MER) seçkilərin nəticələri barədə danışarkən bildirib.

"Nikol Paşinyan və ətrafı istədiklərinə nail ola bilmədilər və indi məlumatların dərci şübhəli şəkildə ləngiyir. Görünən odur ki, onlar öz təşkilatları (Mərkəzi Seçki Komissiyası nəzərdə tutulur - red.) vasitəsilə müəyyən rəqəmlər əldə etməyə çalışırlar", - deyə Tevanyan bildirib.

Müxalif siyasətçi bir daha İrəvan meriyasına seçkilərin tam dəyişiklik üçün fürsət olduğunu vurğulayıb.

"Bu, hakimiyyətin tam dəyişməsi istiqamətində ilk addımdır. Bir şey göz qabağındadır: bu hakimiyyətin nə ictimai etimadı, nə də legitimliyi var. Hesab edirik ki, bu prosesi ümumi mübarizəyə və hakimiyyət dəyişikliyinə çevirmək imkanı var. Hazır olun!", - deyə Tevanyan qeyd edib.

"AzPolitika.info" bu seçkilərlə bağlı Ermənistan mətbuatına istinadla xəbər verir ki, Rusiyanın Xankəndidəki emissarı, erməni milyarder Ruben Vardanyanın himayə etdiyi və maliyyələşdirdiyi "Yaşamaq üçün ölkə" Partiyası İrəvan seçkilərində fiaskoya uğrayaraq, cəmi 3.6 faiz səs toplaya bilib. Qarabağdakı qondarma separatçı rejimdə "nazir" vəzifəsini tutmuş Mane Tandilyanın namizədliyini irəli sürən partiya Vardanyanın və onun Moskvadakı himayədarlarının ümidlərini qətiyyən doğrultmayıb.

Qeyd edək ki, Vardanyan sözügedən partiyanın sahibi və sponsoru olduğunu bir müddət gizlətməyə çalışırdı. O, rəsmən bu partiyanın üzvü deyil. Lakin Ermənistanda hər kəs "Yaşamaq üçün ölkə"nin kimə məxsus olduğunu yaxşı bilir. İrəvan seçkisindən bir neçə gün əvvəl isə Vardanyan "masmasını çıxararaq, açıq şəkildə sözügedən partiyanı müdafiə etməyə, İrəvan ermənilərini Tandilyana səs verməyə çağırdı. Bir neçə dəfə belə çağırışlarla çıxış edən və Tandelyanın mətbuat konfransına onlayn qatılan Vardanyan ermənilərin onun səsinə səs verəcəyinə ümid edirdi. Lakin nəticələr göstərdi ki, İrəvanda Vardanyanı demək olar, adam yerinə qoyan yoxdur...

İrəvan ermənilərinin cəmi 3 faizi Tandilyanın partiyasına səs verməklə, ilk növbədə Vardanyana olan münasibətlərini ortaya qoydu. Bu isə Vardanyanı, yaxud onun təsir dairəsində olan adamları Ermənistanda hakimiyyətə gətirmək istəyən Kremli bir daha düşünməyə vadar edəcək...







Bəhruz Məhərrəmov: "48 faiz səs itirməsi əslində Paşinyanın məğlubiyyətə bərabər qələbəsi deməkdir"
Elçin Mirzəbəyli: "Hər şey İrəvanın sabiq merinin mövqeyindən asılıdır"
Natiq Cəfərli: "İrəvan əhalisi seçkiyə getmədi, çünki..."

Deputat Bəhruz Məhərrəmov "Yeni Müsavat"a bildirdi ki, İrəvan meriyasına seçkilər nəinki Ermənistan daxilində, bütövlükdə Cənubi Qafqazda Ermənistana yeni baxış üçün kifayət qədər ciddi situasiya meydana çıxardı: "Daha öncəki seçkilərdə 81% səslə qalib gələn hakim "Mülki Müqavilə" partiyası bu dəfə 33%-lə kifayətlənməli olub. Üstəlik, seçici fəallığının cəmi 25 faiz olduğu bir situasiyada. Bu rəqəm digər iştirakçı siyasi qüvvələrin nəticələrini qabaqlasa da, cəmi bir periodda 48 faiz səs itirməsi əslində Paşinyanın məğlubiyyətə bərabər qələbəsi deməkdir. Təbii ki, normalda baş verənləri Ermənistanın daxili işi hesab etmək olardı, lakin regionda hərbi-siyasi durum prosesə daha geniş rakursdan baxmağı tələb edir.

İlk növbədə, aydındır ki, Paşinyan ilk baxışda səsləflərindən bir sıra cəsarətli çağırışları ilə, məsələn beynəlxalq hüququ rəhbər tutaraq Qarabağı Azərbaycanın ərazisi kimi açıq formada tanıması, yaxud müəyyən məqamlarda sülh ritorikası ilə seçilsə də, sonradan dediklərini inkar etmək, yaxud vədlərindən geri çəkilməklə həm də əvvəlki iqtidarlardan fərqlənmədiyini göstərir. Üstəlik, Paşinyan kifayət qədər qətiyyətsizdir. Tarixi proseslər də göstərir ki, zəhərlənmiş erməni cəmiyyəti ilə yalnız qətiyyətli dildə danışılması vacibdir. Hakimiyyətin ilk dövründə, xüsusən "məxməri inqilab"ın eyforiyası fonunda "qətiyyətli demokrat" obrazı formalaşdıra bilsə də, Azərbaycanla sülh prosesində təcavüzkar revanşist təfəkkür onu geri addım atmağa məcbur etdi. Paşinyan artıq anlamağa başlayıb ki, Ermənistanda siyasi uğur qazanmaq üçün Azərbaycana münasibətdə düşmənçilik ritorikası sərgiləmək zəruridir. May ayında Azərbaycanın ərazi bütövlüyünü rəqəmlərlə ifadə edərək tanıyan Ermənistan Baş naziri daha sonra hərbi-siyasi təxribatlara da məhz siyasi divident qazanmaq üçün baş vurmuş, istər daxildəki radikallar, istərsə də ayrı-ayrı Qərb dairələrinin bu prosesdə Paşinyana dəstəyi ümumi anti-Azərbaycan fon yaratsa da, nəticə etibarilə son şərti yenə də Azərbaycan diqtə etmiş oldu. Çünki bütün istiqamətlərdə Azərbaycanın aşkar üstünlüyü şəraitində Paşinyanın nə siyasi, nə də hərbi təxribatlarda heç bir şansının olmadığı aydın idi. Erməni baş nazir bunu özü də başa düşürdü və xüsusən razılaşmaya baxmayaraq, Ağdam-Xankəndi yolunun açılmasının 16 gün gecikdirilməsinin kökündə dayanan amillərdən biri məhz İrəvan seçkiləri idi. Bütün cəhdlərə baxmayaraq, Paşinyanın cəmi 33 faizin dəstəyini qazana bilməsi, artıq əvvəlki dövrlərdə olduğu kimi anti-Azərbaycan ritorikasının effektli olmadığını üzə çıxardı.

Bundan başqa, "Milli Tərəqqi" və "Respublika" partiyaları başda olmaqla, qərbyönümlü digər siyasi qüvvələrin seçkilərdə ciddi nəticələr ortaya qoyması, əslində Qərbin özünün də İrəvanda prioritetlərinin dəyişməsinin mümkünlüyündən xəbər verir. Yəni ABŞ da, Fransa da Paşinyanın Qərbə sadiq qalacaq alternativlərinə yox deməyəcək.

Digər tərəfdən, rusiyayönümlü "Ana Ermənistan" blokunun 3-cü yerdə qərarlaşması isə Rusiyanın Ermənistan hakimiyyəti üçün ənənəvi siyasi təzyiq rıçağının hələ də güclü olduğunu göstərir.

Bu mənada İrəvan Ağsaqqallar Şurasına seçkilər əslində Paşinyan üçün həm xəbərdarlıq, həm də son şansdır. Əgər Paşinyan daxili təzyiqlərin qarşısında duruş gətirərək, Azərbaycanla beynəlxalq hüququn şərtlərinin rəhbər tutulduğu sülh müqaviləsini imzalayaraq Bakı və eyni zamanda Ankara ilə münasibətləri yoluna qoyarsa, bu halda həm hakimiyyətin davamlılığını və Ermənistanın inkişafını, həm də daxildə siyasi sabitliyi təmin edə bilər. Əks halda, Azərbaycanla neqativ ritorika, hətta Qərbin dəstəyi fonunda belə daxili siyasətdə effektiv deyil".

BAXCP sədrinin müavini, siyasi şərhçi Elçin Mirzəbəyli bir çox vacib məqamlara toxundu: "İrəvan Ağsaqqallar Şurasına (Bələdiyyə məclisi) keçirilən seçkilərdə Paşinyanın partiyasının namizədlərinin digərlərindən qismən çox səs toplaması paytaxt merinin seçilməsi üçün yetərli deyil. Paşinyanın siyahısındakı şəxslər İrəvan seçicilərinin 1/3 faizinin də səsini toplaya bilməyiblər və bu, əsasən paytaxtda daha çox dəstəyə sahib olan Ermənistanın baş naziri üçün ciddi siqnal sayıla bilər. Burada maraqlı məqamlardan biri öz partiyasını yenicə yaratmış sabiq paytaxt meri Ayik Marutyanın Ağsaqqallar Şurasında 14 mandat əldə etməsidir. Marutyan öz keçmiş komanda yoldaşları, o cümlədən Nikol Paşinyan üçün ciddi baş ağrısına çevrilə bilər. Lakin bütün bu proseslərin ciddi xarici faktorlar olmadan genişmiqyaslı aksiyalara yol açа biləcəyi inandırıcı görünmür. Prosesin önündə Ayik Marutyanın olacağı təqdirdə lokal etirazların baş verməsi və hətta genişlənməsi də mümkündür. Amma bu proses "Qarabağ klanı"nın liderliyi ilə həyata keçiriləcəksə, ciddi dəstək qazanacağı inandırıcı görünmür. Seçkinin nəticəsi də bunu göstərir. İndi hər şey İrəvanın sabiq merinin mövqeyindən asılıdır. Onun sabiq komanda yoldaşları və onların rəqibləri ilə sövdələşməyə getməsi də mümkündür. Ancaq Marutyanın seçkilərə öz partiyası ilə qatılması onun iddiasının paytaxt merliyindən daha çox olduğunu təsdiqləyir və ola bilsin ki, Marutyan bələdiyyə məclisindən başlayan mübarizəsini baş nazir postu uğrunda mübarizə ilə davam etdirsin".

ReAL Partiyasının icra katibi, ekspert Natiq Cəfərli İrəvandakı seçkilərlə bağlı öz Facebook profilində bu statusu paylaşıb: "Ermənistan cəmiyyəti İrəvan şəhər bələdiyyəsinə seçkilərdə yenə "Paşinyan" dedi, onun partiyası ən çox, 32,57% səs topladı, ümumiyyətlə, İrəvan əhalisi seçkiyə getmədi, çünki məhz "ruskafalılar" böyük aktivlik yaradıb Paşinyanı devirmək istəyirdilər, camaat da getmədi, gedənlərdən hər 3 nəfərdən biri də Paşinyanın komandasına səs verdi - baxmayaraq ki, "ruskafalar" İrəvanın hər yerinə Paşinyanın, "Qarabağ Azərbaycandır", sözlərindən düzəldilmiş plakatlar asdılar, baxmayaraq ki, "Paşinyan türkdür", şüarları sələndirdilər, yenə təsiri olmadı, əhali onları böyük ölçüdə dəstəkləmədi.

Ermənistan əhalisindəki bu yanaşmanı dəyərləndirmək, bu köklü dəyişikliyin Paşinyan və komandasının nailiyyəti olduğunu görmək lazımdır. Bölgəmizdə dayanıqlı sülh üçün hələ də ciddi imkanlar var, çox yaxşı ki, həm Azərbaycan rəsmiləri, məsələn, hörmətli Hikmət Hacıyev, həm də Paşinyan bu ilin sonuna qədər sülh müqaviləsinin imzalanmasının mümkün olduğunu söylədilər - doğru olan da budur, bölgədə sülh olsa, rifah, rifah olsa, Şimaldan gələn təhlükələrə sinə gəlmək mümkün olacaq və ən əsası, bölgə ölkələrinin, əsas da Azərbaycan hökumətinin daim gərginliyi əsas gətirərək köklü islahatlara getməmək bəhanələri də aradan qalxacaq".

❑ **Cavanşir ABBASLI,**
"Yeni Müsavat"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azərbaycançılıq

YENİ MÜSAVAT

N 166 (8302) 19 sentyabr 2023

Azərbaycançılıq ideyasının təbliği - "Heydər Əliyev İli"

Respublikanın bütün təhsil ocaqları 2023-2024-cü tədris ilinə başlayıb. Hazırda respublikada 322 ibtidai məktəb, 3 307 tam orta məktəb, 795 ümumi orta məktəb, 16 xüsusi tipli ümumi orta məktəb və 7 əyani-qiyabi (axşam) tam orta məktəb, o cümlədən 59 məktəb-lisey, 49 lisey, 15 gimnaziya və 14 inteqrasiya təlimli internat tipli gimnaziya olmaqla, ümumilikdə 4 447 məktəb fəaliyyət göstərir.

Azərbaycanda təhsilin intibah dövrü nə zamandan başlandı? - rəy

Deputat Ceyhun Məmmədov: "Məhz Heydər Əliyevin təşəbbüsü və birbaşa himayəsi nəticəsində 1970-ci ildən hər il 800-900 nəfər gənc SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa göndərilirdi"



Azərbaycanda 7 dövlət, 1 qeyri-dövlət akademiyası, 16 dövlət, 14 qeyri-dövlət universiteti, 4 dövlət institutu və bir dövlət konservatoriyası fəaliyyət göstərir. Yeni tədris ilində təhsilalanlar 2,1 milyon nəfər, işçi heyət isə 300 min nəfər təşkil edəcək. Onlardan 220 mini məktəbəqədər təhsil, 1,6 milyonu ümumtəhsil, 33 mini peşə təhsili, 60 mini orta ixtisas təhsili, 220 mini isə ali təhsil müəssisələrində təhsil alan və çalışanlar olacaq.

2023-2024-cü tədris ilində ümumi təhsil müəssisələrində ilk dərs "Heydər Əliyev Azərbaycanın xilaskarı və qurucusudur" mövzusuna həsr olunub.

Azərbaycanda təhsilin intibah dövrü Ümummilli lider Heydər Əliyevin hakimiyyətdə olduğu illərdən başlayıb. Heydər Əliyev həm SSRİ zamanında, həm də müstəqillik dövründə Azərbaycana rəhbərlik etdiyi illərdə təhsilin inkişafına, yeni-yeni təhsil ocaqlarının açılmasına xüsusi diqqət ayırıb. Ötən əsrin 70-80-ci illərində Heydər Əliyevin rəhbərliyi ilə təhsil sistemində ciddi islahatlar həyata keçirilmişdi. Məsələn, 1972-ci ildə "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" və 1973-cü ildə "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" qəbul edilmiş qərarlar nəticəsində Azərbaycanda orta ümumtəhsil məktəbləri şəbəkəsi 3 dəfə genişləndirilərək 765-dən 2117-yə çatdırılmışdı. Bu da yüzlərlə ucqar yaşayış məskənlərində orta ümumtəhsil məktəblərinin açılışı, minlərlə azyaşlının təhsilə cəlb edilməsi demək idi.

Milli Məclisin Elm və təhsil komitəsinin üzvü Ceyhun Məmmədov "Yeni Müsavat"a bildirib ki, Ümummilli lider Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə ölkədə 5 yeni ali təhsil müəssisəsi açılmış və ali məktəblərdə təhsil alanların sayı 70 mindən 100 minə qədər artmışdı. Eləcə də Heydər Əliyev keçmiş ittifaqın ən nüfuzlu təhsil müəssisələrində azərbaycanlıların oxumasına çalışmış və bu istiqamətdə əsaslı dönüş yaratmışdı: "Məhz Heydər Əliyevin təşəbbüsü və birbaşa himayəsi nəticəsində 1970-ci ildən başlayaraq hər il 800-900 nəfər gənc SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa göndərilirdi ki, bu da respublikanın milli kadr potensialının daha da gücləndirilməsinə imkan yaradırdı.

Ulu öndər Heydər Əliyev müstəqillik illərində də elm və təhsilin inkişafını diqqətdən kənarda qoymurdu. Bu sahədə mövcud olan problemlərin aradan qaldırılması və Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi məqsədilə ciddi tədbirlər həyata keçirmiş, mühüm tarixi fərman və sərəncamlar imzalamışdı. Məsələn, 2002-ci il oktyabrın 4-də ölkə başçısının imzaladığı "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" sərəncamı milli elm və təhsil sisteminin inkişafında vacib amillərdən biri kimi qiymətləndirilir. Bu sərəncam ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə etibarlı zəmin yaratdı. Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli sərəncamı da ölkədə bu sahədə yaranmış problemlərin aradan qaldırılması yönümündə müstəsna əhəmiyyətə malik dövlət sənədi idi.

Ümummilli lider ölkədə təhsil islahatları aparılmasının zəruriliyini daim vurğulayırdı, hər bir inkişafın elm və təhsildən asılı olduğunu qeyd edirdi. Ümummilli lider öz çıxışlarında da dəfələrlə təhsilin mürəkkəb və olduqca vacib bir sahə olduğunu vurğulayaraq qeyd edirdi ki, təhsil sisteminə çox diqqətlə yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır.

Ulu öndər qeyd edirdi ki, tərəqqiyə gedən yolda uğurlar qazanmağın yollarından biri yüksək təhsilə yiyələnməkdir. Bunun üçün də xüsusilə strateji əhəmiyyətə malik olan təhsil sistemində köklü islahatlar aparılması Heydər Əliyevin zamanında Azərbaycan dövlətinin ali məqsədinə çevrildi".

Deputat qeyd etdi ki, Azərbaycanda son dövrlər həyata keçirilən islahatlar proqramına əsasən fəaliyyətin prioritet istiqamətlərinə diqqət yetirdikdə, Heydər Əliyevin əsasını qoyduğu təhsil strategiyasının nə qədər fundamental bir konsepsiya olduğu aydınlaşır. Bütün sahələrdə olduğu kimi, Azərbaycan təhsilinin də inkişafı istiqamətində Ümummilli lider Heydər Əliyevin siyasəti bu gün islahatların zəruriliyinə ciddi diqqət yetirən ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu günün reallıqları sübut edir ki, Heydər Əliyevin siyasi kursuna uyğun aparılan islahatlar müsbət nəticələr verir və Azərbaycan dövlətini bütün dünyada layiqincə təmsil etməyə, eləcə də ölkənin hərtərəfli inkişafında yaxından iştirak etməyə qadir olan gənc nəslin yetişməsinə şərait yaradır.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Etibar SEYİDAĞA

Almaniya dörd günlük iş həftəsini sınaqdan keçirəcək

Almaniyada dörd günlük iş həftəsi sisteminin sınaqdan keçirilməsi üçün pilot layihəyə start veriləcək. Berlində yerləşən "İntraprenör" konsaltinq şirkəti tərəfindən həyata keçiriləcək layihədə 50-dən çox şirkətin iştirakı gözlənilir.



Musavat.com "Deutsche Welle"yə istinadla xəbər verir ki, layihə çərçivəsində şirkətlər altı ay ərzində həftədə dörd gün işləyəcək. Bu prosesdə iş vaxtı 80 faizə enəcək, lakin məhsuldarlıq və əmək haqqı 100 faiz səviyyəsində saxlanılacaq.

Layihənin məqsədi dörd günlük iş həftəsinin məhsuldarlığa, iş-həyat balansına və işçilərin məmnunluğuna təsirini ölçməkdir.

Hans Bökler mərkəzi tərəfindən aparılan sorğuya görə, alman işçilərin 73 faizi qazandıqları pul eyni qaldığı müddətcə həftənin dörd günü işləməyə razıdır.

Sorğuda iştirak edənlərin 17 faizi həftədə dörd gün işləməyin əleyhinədir. Bu qrupun işləməkdən həzz aldığı, iş saatlarının qısaldılmasının iş sistemini dəyişəcəyindən narahat olduğu, işlərini bitirə bilməyəcəklərini düşündüyü bildirilir.

Orta Ölçülü Müəssisələr Birliyi isə həftənin dörd günü işləməkdən uzaqdır. Birlik işəgötürənlər və işçilər arasında fərdi həllərin mümkün ola biləcəyinə inanır, lakin dövlətin mümkün müdaxiləsinə qarşıdır.

Birliyin baş katibi Kristof Olhaus, iş vaxtının azaldılmasının məhsuldarlığın azalmasına səbəb ola biləcəyini ifadə edərək, əvvəlcə müəssisələrin, sonra isə hər kəsin zərər çəkəcəyini bildirir.

Almaniyanın ən böyük birliyi olan "IG Metall" bu fikirdədir ki, dörd günlük iş həftəsi ilə bağlı müzakirələrdə Almaniyanın metal və elektronika sənayesindəki rəqabət qabiliyyəti nəzərə alınmalıdır.

"IG Metall"ın prezidenti Yorq Hofmann dörd günlük iş həftəsi modelinin gələn il keçiriləcək kollektiv müqavilə danışıqlarında "IG Metall"in tələbləri siyahısında olmayacağını və bunun "uzunmüddətli məsələ" olduğunu söyləyib.

Eyni layihə daha əvvəl İngiltərədə də həyata keçirilib və şirkətlər layihənin sonunda müsbət balans tərtib ediblər. Böyük Britaniyada layihədə iştirak edən 61 şirkətdən 56-sı dörd günlük iş həftəsi sistemini davam etdirəcəklərini bildirib.

Sınaq dövründə xəstəlik məzuniyyəti alan işçilərin nisbəti 65 faiz, işdən çıxan işçilərin nisbəti isə 57 faiz azalıb. Boston və Kembricdən olan mütəxəssislərin apardıqları təhlillərə görə, sınaq müddətində şirkətlərin dövriyyəsində orta hesabla 1,4 faiz artım qeydə alınıb.

❑ Musavat.com

Naxçıvan Şəhər İcra Hakimiyyətində 5 milyon 311 min manatlıq mənimsəmə

Naxçıvan Şəhər İcra Hakimiyyətində yoxlamalar başa çatdırılıb. "Report"un yerli bürosu xəbər verir ki, Azərbaycan Respublikası Hesablama Palatasının 2023-cü il üzrə İş Planına uyğun olaraq Naxçıvan Şəhər İcra Hakimiyyəti və onun tabeli təşkilatları üzrə dövlət vəsaitinin istifadəsinin auditi aparılıb. Audit 2021-2022-ci illəri əhatə edib və uyğunluq auditi formasında həyata keçirilib.

Nəzarət tədbiri nəticəsində 1.792.167 manat məbləğində artıq və qanunsuz əmək haqqı ödənilməsi, 564.407 manat məbləğində mal alışının əmtəəsiz sənədləşdirilməsi, 2.955.000 manat məbləğində vətəndaşlardan vəsaitin qanunsuz tələb edilməsi halları müəyyən edilib.

Auditlə həmçinin icra hakimiyyətinin tabeli qurumlarında küçələrin işıqlandırılması xərclərinin sayğac göstəricilərinə uyğun aparılmadığı, istehsalçılara satılmış suyun faktiki həcminin rəsmiləşdirilmiş göstəricidən nəzərəçarpacaq dərəcədə az olduğu, malların baha qiymətə rəsmiləşdirildiyi, dövlət əmlakından qanunsuz istifadə edildiyi və büdcəyə çatacaq vergilərin ödənilmədiyi də aşkar olunub.

Müəyyən olunmuş hüquqpozmalarda cinayət tərkibi əlamətlərinin ehtimal edilməsi nəzərə alınaraq Hesablama Palatasının Kollegiyası tərəfindən auditin nəticələrinə dair müvafiq materialların hüquq-mühafizə orqanlarına göndərilməsi qərara alınıb.

"SSRİ qanla bərpa ediləcək" iddiası - Putinin deputatını kim danışdırır?

Rusiyanın hakim "Vahid Rusiya" Partiyasından olan deputat Yevgeni Fyodorov Dövlət Dumasına SSRİ-nin keçmiş sərhədləri daxilində bərpasını təklif edən qanun layihəsi hazırlayaraq təqdim edib.

Bu barədə "Focus" nəşri məlumat yayıb.

Fyodorov öz mövqeyini öncə belə əsaslandırır ki, keçmiş SSRİ-nin tərkibində olmuş müstəqil dövlətlərin ərazisində hər zaman müxtəlif münaqişələr baş verir. "Ona görə də Rusiya bu ölkələrin hər biri ilə döyüşməli olsa belə, onları yenidən Moskvanın nəzarətinə qaytarmaq məntiqlidir".

Deputat ardınca iddia edib ki, guya sabiq müttəfiq respublikalar SSRİ-ni qanunsuz tərk edib və buna görə də Rusiyanın onları geri qaytarmaq hüququ var: "Ukraynanın hazırkı işğalı belə qayıdışın başlanğıcıdır".





Elşən Musayev: "Fyodorovun bu fikri qanun layihəsinin özündən daha betər cəfəngiyyatdır" Əli Orucov: "Bu qanlı imperiya artıq tarixin toz basmış arxivinə çevrilib"

Onun fikrincə, keçmiş ittifaq respublikaları Rusiya Federasiyası ilə münaqişə vəziyyətində olub və gələcəkdə də **münaqişədə olacaqlar. Deputat əmin edir ki, bu məsələləri yoluna qoymaq üçün Rusiya hamı ilə vuruşacaq.**

"SSRİ-nin bütün ərazisi qeyri-sabitdir. Ətrafda hərbi əməliyyatlar gedir. Ukrayna ilə bağlı hekayə artıq yüzüncüdür. Bundan əvvəl Tacikistan, Dnestryanı, Gürcüstan və digər konfliktlər var idi. Bu o deməkdir ki, 90-91-ci il qanununun pozulması daimi qarşıdurmalara səbəb olub. Onları dayandırmaq üçün biz əsasa - qanunun mövqeyinə qayıtmalı olacağıq", - Fyodorov faktiki postsovet ölkələrini hədələyib və əlavə edib ki, (SSRİ) sərhədlərinin bərpası məsələləri ilə xüsusi hüquqşünaslar məşğul olmalıdır.

Diqqətçəkicidir ki, bunu LDPR-in hansısa radikal-faşist təmayüllü deputatı, yaxud kommunistlərin lideri Gennadi Züqanov yox, məhz prezident Vladimir Putinin sədri olduğu hakim "Vahid Rusiya" partiyasının üzvü bəyan edir. Nəinki bəyan edir, üstəlik, bu avantüraya "hüquqi" don geydirmək üçün parlamentin aşağı palatasına qanun layihəsi də təqdim edir! O zaman sual yaranır: bu, həm də Kreml rəhbərinin mövqeyi, sözü deyil ki?

Başqa yandan, "sabiq müttəfiq respublikalar SSRİ-ni qanunsuz tərk edib" nə demək, əgər son (1977) SSRİ Konstitusiyasına görə (preambula hissəsi), müttəfiq respublikaların ittifaq dövlətindən sərbəst çıxmaq hüququ olubsa və sovetlər birliyi, ümumiyyətlə, könüllü birlik olubsa?..

Xatırladaq ki, Rusiya prezidenti dəfələrlə SSRİ-nin bərpasının qeyri-mümkün olduğunu bildirib. Hərçənd belə bir ifadə də işlədib: "Sovet İttifaqının dağılmasına acımayanların ürəyi, onun bərpasını mümkün sayanların isə ağlı yoxdur".

Demokratik Maarifçilik Partiyasının sədri, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Elşən Musayev Fyodorovun özbaşına qərar vermədiyini düşünür: "Yevgeni Fyodorovun hazırladığı qanun layihəsi heç şübhəsiz ki, cəfəngiyyatdan savayı bir şey deyil və konkret məqsədlərə hesablanıb. Həmin məqsədlərdən biri Qərbə və konkret olaraq Amerikaya demarşdır. İkincisi isə Rusiyanın xüsusən millətçilər arasında öz nüfuzunu artırmaq, hələ də güclü olduğunu, daha böyük ideyalar barədə düşündüyünü göstərmək cəhdidir.

Özbaşınamı verib bu qərarı Fyodorov? Düşünmürəm. Çünki "Vahid Rusiya" Partiyasının hər bir üzvü indiki həssas məqamda güman ki, aldığı nəfəsin də məruzəsini haralarasa edir. Yəni məsləhətsiz, razılaşdırılmadan belə bir kritik qanun layihəsini hakim partiyanın siravi üzvü bu qədər rahat şəkildə ortalığa çıxara bilməz. Yenə başqa kimsə, məsələn, Züqanov tipində adam oxşar bir hərəkət etsəydi, düşünmək olardı ki, özfəaliyyətdir. Amma yox. Bu dəfə ideya iqtidar partiyasının üzvündən gəlib və hətta parlamentin müzakirəsinə belə təqdim edilib. Ona görə də xətt aydındır. Məqsədi də söylədim. Sadəcə, məsələ burasındadır ki, belə bir arzunun gerçəkləşməsinin mümkünatı yoxdur. Çünki ideyanın özü absurdun belə ötəsidir. Və ya: lap qanunu qəbul elədilər. Sonra? Bütün keçmiş SSRİ ərazisinə ordumu yeridəcəklər? Buna resursmu çatar? Xeyr, təbii. Bəs necə olacaq? Heç nə. Qanun gedəcək arxivə və gələcək nəsillər, Rusiyanın 10 il, 20 il sonrakı hakimiyyətləri üçün (guya) hüquqi baza yaranacaq ki, bax, birdən beyniniz çönsə bu qanundan yapışıb hərəkət edin, istila edin, işğal edin. Vəssalam. O da ki, bir daha təkrar edirəm, nağıldır, illüziyadır və heç bir zaman gerçəkləşməsi mümkün olmayan icraatdır.

SSRİ-nin tərkibindən kiminsə qanunsuz çıxmasına gəlincə isə onu söyləməliyəm ki, Fyodorovun bu fikri qanun layihəsinin özündən daha betər cəfəngiyyatdır. Çünki SSRİ formatı könüllülük prinsipinə əsaslanıb və hamının istədiyi vaxt bu birliyi tərk etmək hüququ olub".

AMİP liderinin köməkçisi, politoloq Əli Orucov bu arzunun reallaşmasını istənilən halda mümkünsüz sayır: "SSRİ-nin bərpası fərq etməz, ya siyasi, ya da hərbi güc yolu ilə mümkün deyil. Bu qanlı imperiya artıq tarixin toz basmış arxivinə çevrilib. Dünya düzəni də ictimai-iqtisadi formasiyada tamam fərqli yöndə inkişaf edir. SSRİ-dən ayrılmış keçmiş müttəfiq respublikalar da öz gələcəyini və yolunu seçib. Tarixin təkərini heç kəs geri fırlada bilməz. Digər tərəfdən, Rusiyanın nə iqtisadi, nə siyasi, nə də hərbi gücü yoxdur ki, hansısa formada bu utopiyanı gerçəkləşdirə bilsin. Ukrayna bataqlığından 1 ildən çoxdur ki, çıxa bilmir. Görün geridə neçə Ukrayna var. Doğrudur, Rusiyada imperiyapərəst qüvvələr və keçmişin nostalgiyasından çıxa bilməyənlər var. Onlardan biri də hakim "Vahid Rusiya" Partiyasından olan deputat Yevgeni Fyodorovdur. SSRİ-ni bərpa etmək istəyində olanlardan biri də RLDP-nin sabiq sədri Jirinovski idi, arzusu gözündə dünyadan köçdü. "Vahid Rusiya" Partiyasından deputat olmaq heç də o demək deyil ki, həmin partiyanın ümumi mövqeyini ifadə edir. Putinin özü SSRİ-nin süqutunu legitim hesab etməsə də, bu prosesi qanunauyğun sayıb və yenidən bərpanı mümkünsüz sayıb. Fyodorov çox yaxşı bilir ki, postsovet məkanındakı bütün münaqişələrin müəllifi və tətikçisi Moskvadır. Əgər Rusiya keçmiş müttəfiq respublikaları ilə mehriban və qarşılıqlı hörmətə, maraqların uzlaşdırmasına əsaslanan xarici siyasət yürütsə, belə münaqişə və gərginlik ocaqları qalmaz.

Rusiya nə qədər militarist və aqressiv siyasət yürüdəcəksə, bir o qədər təkənəcək, təcrid olunacaq. Qonşuları da öz təhlükəsizliklərini qorumaq üçün alternativlər axtarmağa məcbur olacaqlar. Hətta Rusiyanın forpostu olan Ermənistan Moskvadan qaçır. Məncə, Fyodorovun parlamentə SSRİ-nin bərpa edilməsi ilə bağlı təqdim edəcəyi layihə lap qəbul edilsə belə, heç nəyə yaramayacaq. Olsa-olsa neoimperialistlərin könlünü oxşayacaq, vəssalam. Hesab edirəm ki, Fyodorov kimiləri SSRİ-nin bərpası barədə deyil, Rusiya Federasiyasının özünün mövcudluğunun necə təhlükəyə düşdüyü barədə düşünsə, daha yaxşı olardı".

❑ **Cavanşir ABBASLI,**
"Yeni Müsavat"

İran və ABŞ arasında məhbusların mübadiləsi baş tutub



İran və ABŞ arasında məhbusların mübadiləsi baş tutub. APA xəbər verir ki, bu barədə "Agence France-Presse" (AFP) xəbər agentliyi öz mənbələrinə istinadən məlumat yayıb.

Məlumatda qeyd olunub ki, ABŞ və İran arasında baş tutan mübadilə çərçivəsində azad edilmiş 5 amerikalı məhbusu daşıyan Qətərə məxsus təyyarə Tehran hava limanından havaya qalxıb və Dohaya yola düşüb.

Mübadilə zamanı ABŞ-da azadlığa buraxılan beş iranlı məhbusdan ikisi Mehrdad Moeen Ansari və Reza Sarhangpur Qətərin paytaxtı Dohaya gediblər.

Həmin şəxslərlə yanaşı, ABŞ-da həbsdə olan daha üç iranlı məhbus da azadlığa buraxılıb.

Çin Rusiyaya dron satışına bəzi məhdudiyyətlər tətbiq edib



Çin hökuməti bu ayın əvvəlindən Rusiyaya öz çəkisi 4 kiloqramdan, yüklü çəkisi 7 kiloqramdan və uçuş müddəti 30 dəqiqədən çox olan pilotsuz uçuş aparatlarının (PUA), həmçinin PUA-lar üçün komponentlərin tədarükünə məhdudiyyətlər tətbiq edib.

APA xəbər verir ki, bu barədə Rusiyanın "Kommersant" nəşri yazıb.

Nəşrin sözlərinə görə, Pekinin tətbiq etdiyi məhdudiyyətlər PUA-ların Rusiyaya çatdırılmasını ciddi şəkildə çətinləşdirib, bir sıra komponentlərin, xüsusən də termal görüntü cihazları və lazer məsafəölçənlərinin çatışmazlığına səbəb olub.

Həmçinin bildirilib ki, Rusiyanın PUA istehsal edən iri şirkətləri Çindəki təchizatçılardan texnikanın ölkəyə ixracı üçün lisenziya almağa çalışır, bu proses bir ilə qədər çəkə bilər, lakin onlar ilk növbədə sübut etməlidir ki, əldə olunacaq PUA-lar hərbi məqsədlər üçün istifadə olunmayacaq.

YENİ MÜSAVAT
N 166 (8302) 19 sentyabr 2023

Ailə qurmaq istəyənlər üçün daha bir müayinə - ixtioz və bullyoz nikaha əngəlmi?

Həkim: "Müalicəsi çox çətindir, ona görə..."

Artıq xəbər verildiyi kimi, bundan sonra nikahdan əvvəl ixtioz və bullyoz epidermoliz xəstəliyinin də tibbi müayinəsi aparılacaq. Bu, Nazirlər Kabinetinin "2023-2027-ci illər üzrə ixtioz və bullyoz epidermoliz xəstəliklərinin müalicəsinə və profilaktikasına dair Tədbirlər Proqramı"nın təsdiq edilməsi haqqında" sərəncamında əksini tapıb.



Sərəncamda qeyd olunub ki, ixtioz və bullyoz epidermoliz xəstəliyinin irsi olaraq keçdiyi nəzərə alınmaqla, risk qrupuna daxil olan şəxslərin nikahdan əvvəl tibbi müayinələri aparılmalıdır. Bu məqsədlə qanunvericilikdə dəyişiklik edilməsinə dair təkliflər hazırlanacaq, tibbi müayinələri həyata keçirən tibb müəssisələri müəyyən ediləcək və digər müayinələrlə yanaşı, qeyd edilən xəstəliyin müayinəsinin aparılmasına ciddi nəzarət olunacaq.

Qeyd edək ki, hazırda nikaha girmək istəyənlər bəzi irsi xəstəliklər və ağır virus xəstəlikərlə bağlı məcburi müayinədən keçirlər. Tutaq ki, bu xəstəliklər aşkara çıxsa, nikah təhlükəli sayılacaqmı?

Məlumat üçün bildirək ki, ixtioz (yun. ichtys-balıq) - balıqpulcuğu, kseroderma dəri xəstəliyidir. Uşaq yaşlarında başlayır, yetkinlik dövründə güclənir və insanın ömrü boyu davam edir. Müalicəsi olmayan xəstəliyə sahib olan uşaqlar sərt və elastikliyi olmayan dəriyə malik olurlar, eyni zamanda sərt dəri yarıqlar vasitəsilə bir-birilərindən aralanır, dərinin yumşaq toxuması görünür, yara hissələrindən daima su axır. İxtiozun 4 forması daha geniş yayılıb: adi ixtioz, x-ilgili ixtioz, lamellyar ixtioz, epidermolitik ixtioz.

Tibb ədəbiyyatında bullyoz ixtiozun bir çox sinonimi var: epidermolitik ixtioz, epidermolitik hiperkeratoz, bullyoz anadangəlmə ichthiyoziform Broca eritroderması. Xəstəlik ilk dəfə 1897-ci ildə rus dermatoloqu Nikolski tərəfindən təsvir edilib və fransız alimi L. Broc XX əsrin əvvəllərində patologiyanın klinik mənzərəsinin ətraflı öyrənilməsi ilə məşğul olub. İxtiozun bullyoz forması 200-300 min əhaliyə 1 hal tezliyi ilə baş verir, xəstələnmədə cinsi və irqi fərqlər aşkar edilməyib.

Bullyoz ixtioz ağır bir xəstəlik sayılır, çünki ölüm-cül formaları da istisna edilmir: erkən abortlar, ölü doğuşlarla nəticələnə bilən xəstəlikdir. Eləcə də uşaqlar vaxtından əvvəl doğulur, bunun nəticəsində onlarda tənəffüs çətinliyi sindromu ("hialin membran xəstəliyi"), beyindaxili qanaxmalar və vaxtından əvvəl retinopatiya inkişaf edir. Vaxtından əvvəl doğuş nekrotizan enterokolitə, ağır hipoqlikemiyaya və qidalanma pozğunluğuna səbəb ola bilər.


Geniş zədələnmə fonunda körpələrdə yeni doğulmuş dövrdə böyük əhəmiyyət kəsb edən bütün dəri funksiyaları pozulur - tənəffüs, ifrazat, termorequlyasiya. Açıq yaralar olduğundan maye itkisinə səbəb olur ki, bu da körpələrin bədəninin susuzlaşmasına gətirib çıxarır. Çoxlu açıq yaralar isə infeksiya üçün giriş nöqtələrinə çevrilir, bu da yeni doğanın immunitet sisteminin qeyri-kafi işləməsi şəraitində septik ağırlaşmalara səbəb olur.

Dermatoloq Bəxtiyar Paşayev mövzu ilə bağlı "Yeni Müsavat"a dedi ki, bunlar genetik problemlərdir: "İxtioz dəri quruluğudur. Genetik ötürülür. Dəri quruluğu verir, digər xəstəlik isə dərinin ayrılmasıdır. Xırda travmalardan sonra suluxların əmələ gəlməsidir. Bu sonradan da ola bilər. Amma bu adətən genetik ötürülür. Müalicəsi çox çətindir, demək olar ki, yox kimidir. Sadəcə, simptomatik müalicəsi var. Həyat üçün birbaşa təhlükəsi olmasa da, dəri infeksiyaları həyat keyfiyyətinin aşağı düşməsi deməkdir. Nikahdan əvvəl yoxlanılmasına gəlincə isə, bununla bağlı ətraflı məlumatım yoxdur. Ehtimal olunur ki, iki şəxsin ixtioz daşıyıcısı olub-olmamasını yoxlayırlar. Yəni bu xəstəlik gələcək nəsillərə ötürülməsin. Yəni hər ikisində olarsa, növbəti nəslə ötürülə bilər".

Ginekoloq Rəşad Sultan da mövzu ilə bağlı "Yeni Müsavat"a fikirlərini bildirdi: "Bununla bağlı genetiklər fikir bildirməlidirlər. Amma bizdə genetik ya yoxdur, ya da doğru-dürüst genetik yoxdur deyə çox zaman xəstələr də bu suallarla bağlı bizə, ginekoloqlara müraciət edirlər. Bir çox genetik xəstəliklər var. Əgər genetik hamilələk dövründə xəstəliyin diaqnozu istənirsə, daha doğrusu, ana bətnində uşaqda bu xəstəlik varmı-yoxmu, bu suala cavab almaq istəyirlərsə, ginekoloqun vəzifəsi uşağın ana bətnində olduğu zaman suyundan götürüb baxması lazımdır. Çünki ancaq uşağın suyunda onun hüceyrələrini əldə edə bilirik. Müvafiq genetik analizə göndərə bilirik. Bizim ginekoloq olaraq vəzifəmiz budur.

O ki qaldı xəstəliyin aşkara çıxmasına və bunun nə dərəcədə təhlükəli olub-olmamasına, bəli, həm anada, həm də atada xəstəlik olarsa, uşaqda olma ehtimalı yüksəkdir. Hər iki xəstəlik resesiv keçişli xəstəlikdir, yəni sadəcə valideynlərin birində bu gen varsa, valideynlərdən biri daşıyıcıdırsa, uşaqda xəstəliyin üzə çıxma ehtimalı yoxdur. Sadəcə, daşıyıcı olma ehtimalı var. Amma valideynlərin hər ikisi daşıyıcıdırsa, o zaman uşaqda bu xəstəliyin olma ehtimalı 25 faizdir. Ona görə, əlbəttə, hamilələk dövründə uşaqda bu xəstəliyin olub-olmaması barədə diaqnoz qoyulmalıdır. Başqa bir metod da var. Əgər şəxs xəstə uşağa hamilə qalmaq istəmirsə, süni mayalanma, yaxud implantasiya öncəsi genetik araşdırma ilə ancaq sağlam uşağı ana bətninə qoymaqla da xəstəliyin qarşısını almaq olar".

❑ **Afaq MİRAYİQ,**
"Yeni Müsavat"



Geomaqnit qasırğası başlayıb, bu gün daha da güclənəcək

Sentyabrın 18-də G1 (zəif) səviyyəli geomaqnit qasırğası başlayıb. Şamaxı Astrofizika Rəsədxanasından APA-ya verilən məlumata görə, geomaqnit sahəsinin 16 sentyabrda baş vermiş TKA-nın təsiri ilə 19 sentyabrda G3 (güclü) səviyyəsinə kimi yüksəlməsi ehtimalı var.

Geomaqnit sahəsinin 20 sentyabrda sakitləşəcəyi gözlənilir. 23 sentyabrda yenidən G1 (zəif) səviyyəli geomaqnit qasırğası ehtimalı var.



Azərbaycana gətirilən qarğıdalının idxal qiyməti 16%-dən çox azalıb

2023-cü ilin yanvar-avqust aylarında Azərbaycana 19 milyon 215 min dollar dəyərində 65 min 336 ton qarğıdalı idxal edilib.

"APA-Economics"in Dövlət Gömrük Komitəsinin hesabatı əsasında apardığı hesablamalara görə, bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə dəyər baxımından 5.6% və ya 1 milyon 29 min dollar, həcm baxımından isə 26.5% və ya 13 min 724 ton çoxdur. 2022-ci ilin yanvar-avqust aylarında Azərbaycana 18 milyon 185 min dollar dəyərində 51 min 612 ton qarğıdalı idxal edilib.

Qeyd edək ki, Azərbaycana gətirilən qarğıdalının idxal qiyməti 16.5% azalıb. Belə ki, hesabat dövründə ölkəyə gətirilən qarğıdalının 1 tonun orta qiyməti 294 dollara (499.8 manat) bərabər olub. Bu göstərici ötən ilin müvafiq dövründə 352.3 dollar (598.9 manat) təşkil edib.

Xatırladaq ki, cari ilin ilk 8 ayında qarğıdalı idxalı Azərbaycanın ümumi idxalının 0.17%-nə bərabər olub.

Türkiyədə axtarışda olan terrorçu zərərsizləşdirilib

Türkiyədə qırmızı kateqoriyada axtarışda olan "Axin Muş" kod adlı terrorçu Hülya Demirer məhv edilib. APA-nın İstanbul müxbirinin verdiyi xəbərə görə, bu barədə Türkiyə daxili işlər naziri Ali Yerlikaya bildirib.


O qeyd edib ki, zərərsizləşdirilən terrorçu 79 nəfərin şəhid, 339 nəfərin isə yaralanmasına səbəb olub.

YENİ MÜSAVAT
N 166 (8302) 19 sentyabr 2023

Karantin ehtimalı ciddiləşir - bu şəxslər yenidən risk altındadır!

Səhiyyə Nazirliyi COVİD-lə bağlı əhaliyə xəbərdarlıq etdi; **Nəzrin Mustafayeva:** "Bu ştamın özündən əvvəlkilərlə müqayisədə yoluxuculuq sürəti daha yüksəkdir"

"Son dövrlər dünyanın bir sıra ölkələrində, eləcə də qonşu Türkiyədə koronavirusa yoluxma sayının artması, eləcə də yeni ştamın ortaya çıxması Azərbaycanı da zəruri profilaktik tədbirlər görməyə məcbur edir. COVİD-19-a yoluxmaların sayı artarsa, karantin tədbirləri qaçılmazdır". Bunu mediaya açıqlamasında həkim-infeksionist Ləman Qalimova deyib.



Onun sözlərinə görə, COVİD-19-un yeni ştamı olan "Eris"in bir xüsusiyyəti var ki, insanların immun sistemində gizlənə bilir. Bu xüsusiyyətinə görə yeni ştam insanlarda ağırlaşmalara səbəb ola bilər: "Bu səbəbdən insanlar maksimum şəkildə qorunmalıdırlar. Əsasən də vaksinasiyası olmayan insanlar təhlükə altındadır. Həmçinin yanaşı xəstəlikləri, onkoloji, revmatoloji xəstəliyi və immun sistemi aşağı olanlar risklə üz-üzədir. Hamilə və azyaşlılar xüsusən özlərini qorumalıdırlar. Bol maye qəbul etməli, maskadan istifadə olunmalıdır. Havalar soyuduğu üçün mövsümi infeksiyaların yayıldığı bir dönəmdəyik".

Həkim-infeksionist qeyd edib ki, sərhədlər açıq olduğu üçün insanlar diqqətli olmalı, özlərini qorumalı və vaksinasiya olunmalıdırlar. Çünki immun sistemi aşağı olanlar nəinki koronavirusun "Eris" növünə, bütün ştamlara yoluxa bilərlər: "Qida rejiminə xüsusi diqqət yetirmək lazımdır. Həmçinin gigiyena qaydalarına əməl olunmalı, sosial məsafə saxlamaq, toplum olan yerlərdən uzaq durmaqla insanlar özlərini və yaxınlarını qoruya bilərlər".

Bəs xəstəliyi keçirmiş, lakin peyvənd olunmamış insanlar üçün risk dərəcəsi necədir? Azərbaycanda hazırda hansı vaksinlər istifadə olunur və kifayət qədər vaksin varmı? Peyvənd olunmaq üçün hara müraciət edilməlidir?

TƏBİB-in Tibbi xidmətlərin inkişafı departamentinin Yoluxucu xəstəliklər və infeksion nəzarətin təşkili şöbəsinin müdiri Nəzrin Mustafayeva mövzu ilə bağlı "Yeni Müsavat"a dedi ki, artıq bir neçə aydır ki, COVİD-19-un "Omikron" ştamına uyğun alt variant olan EG.5 dünyada sürətlə yayılmaqdadır, buna eyni zamanda "Eris" adı da verilib: "Xüsusilə də ABŞ, Çin, Avropanın bir sıra ölkələrində yeni və sürətli yoluxmalara səbəb olub. Bu ilk dəfə deyil. Bundan öncə də COVİD-19-un müxtəlif mutasiyalarını, ştamlarını biz müşahidə etmişik. Lakin dəyişməyən bir həqiqət var ki, hələ heç bir yeni yaranmış ştam özündən öncəkilərə nisbətən daha ağır gedişə malik olmayıb. Sadəcə, bu ştamın özündən əvvəlkilərlə müqayisədə yoluxuculuq sürəti daha yüksəkdir. Qısa bir zamanda kütləvi şəkildə yoluxmalara səbəb ola bilər. COVİD-19-un yeni variantı əgər ölkəmizdə də aşkarlanarsa, təbii ki yoluxma sayında çoxalma olacaq. Lakin hər kəsə məlumdur ki, cəmiyyətin böyük əksəriyyəti bu xəstəliyi keçirib və sağalıblar. Bizim ölkədə COVİD-19-a qarşı peyvəndləmə göstəriciləri də qənaətbəxşdir. Vaksinlərlə bağlı hər zaman beynəlxalq tibbi qurumların tövsiyələrini biz nəzərə alırıq. Hələ ki COVİD-19-un "Omikron" ştamının EG.5 variantına qarşı Ümumdünya Səhiyyə Təşkilatı və digər nüfuzlu səhiyyə qurumlarının xüsusi bir tövsiyəsi açıqlanmayıb".

İnfeksionist əlavə edib ki, hər zaman olduğu kimi, COVİD-19-un bütün mutasiyalarına, variantlarına qarşı həssas əhali qrupu, risk qrupuna daxil olan şəxslər diqqətli olmalıdır: "Yanaşı xəstəliyi olanlar, xroniki xəstəliyi olanlar, COVİD-19-a qarşı peyvənd olunmamış vətəndaşlar üçün hər zaman müəyyən qədər təhlükə mövcuddur".

Həkim qeyd edib ki, hazırda yeni mutasiya ilə yoluxma hallarına rast gəlinməyib: "Belə bir hal öz təsdiqini tapmayıb".

Dünyada COVİD-in yeni ştamlarının sürətlə yayılması narahatlıq doğurur. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, son 1 ayda dünya üzrə yoluxanların sayı 38% artıb.

APA xəbər verir ki, Avropada yoluxmaya artım 39, Sakit okeanın qərbində 52, Aralıq dənizinin şərqində isə 113 faiz təşkil edir.

Yoluxmaların artmasına koronavirusun sonradan ortaya çıxan yeni variantlarının, xüsusən də "Eris" olaraq bilinən Eg.5 və "Pirola" adlandırılan BA.2.86-nın səbəb olduğu qeyd edilir.

Hazırda ABŞ-da COVİD-ə yoluxma 2020-ci ilin ilk pandemiyasının statistikasına yaxınlaşır. ABŞ-da gündə 650 mindən artıq amerikalıda COVİD aşkarlanır və yaxın aylarda ölkə əhalisinin 10 faizə yaxınının virusa yoluxacağı proqnozlaşdırılır. Ölüm halları avqustla müqayisədə 5% artıb. Son həftə ərzində ABŞ-da COVİD-ə görə xəstəxanaya yerləşdirilənlərin sayı 8,7%, ölüm halları isə 4,5% artıb. ABŞ Federal Səhiyyə Təşkilatı amerikalılara COVİD-19-a qarşı vaksin olunmağı tövsiyə edib.

Almaniya, Fransa, Koreya, İtaliya, Böyük Britaniya, Avstraliya və Sinqapurda da yoluxma sayında kəskin artım qeydə alınıb. Almaniyada gündəlik yoluxmaların sayının son dörd həftə ilə müqayisədə iki dəfə artdığı açıqlanıb. Almaniyada "Eris" və digər alt variantlara qarşı təsirli olduğu iddia edilən yenilənmiş peyvəndlər bu gündən etibarən tətbiq olunmağa başlasa da, Fransada peyvənd kampaniyası 2 həftə erkənə alınıb. Fransadakı peyvənd kampaniyasında ilkin olaraq XBB.1.5-ə uyğunlaşdırılmış yeni Pfizer peyvəndi istifadə ediləcək.

O cümlədən Latviyada yayda test nəticələri 5-10% pozitiv olduğu halda, hazırda bu rəqəm artıq 25%-ə yaxınlaşır. Ölkə əhalisinə bir həftə evdə qalmaq və digər şəxslərlə kontakt qurmamaq, küçəyə çıxan zaman isə respiratorlardan istifadə tövsiyə olunur.

Rusiyanın Altay vilayətində COVİD-ə yoluxma artdığına görə 49 məktəbdə karantin məhdudiyyətləri tətbiq olunub, 6 məktəb isə ümumiyyətlə karantinə bağlanıb. "Suqruntenfqaz"da yenidən maska rejiminə keçid müzakirə olunur.

ÜST risk zonasında olanları, əsasən də immuniteti aşağı olan yaşlı təbəqəni revaksinasiya olmağa çağırır.

Xatırladaq ki, Ümumdünya Səhiyyə Təşkilatı mayın 18-də vaksinlərin dominant XBB.1 ştamlarına uyğunlaşdırılmasını tövsiyə edib. Avropa bazarlarında XBB.1.5-i hədəf alan üç yeni vaksin hazırlanıb. Avropa Səhiyyə Agentliyi sentyabrın 1-də BioNTech-Pfizer-in RNT peyvəndinin Avropada marketinq icazəsini təsdiqləyib. Modernanın oxşar peyvəndi də sentyabrın 15-də təsdiqini alıb. Novavax-dan zülal əsaslı peyvənd isə hələ qiymətləndirilmə mərhələsindədir. Avropa Səhiyyə Agentliyi qeyd edir ki, hər üç peyvənd ümidverici effektivlik əlamətləri göstərir.

Səhiyyə Nazirliyinin mütəxəssis-eksperi, infeksionist Vasif Əliyev APA-ya açıqlamasında bildirib ki, hazırda qonşu ölkələrdə COVİD-19-un yeni variantı aşkarlanıb: "COVİD-19-un yeni ştamı, həmçinin qrip, digər respirator infeksiyalar nisbətən yüngül formada keçdiyindən xəstələr əksər hallarda test vermək üçün xəstəxanaya və poliklinikalara müraciət etmirlər, ev şəraitində simptomatik müalicə alırlar. Bu isə öz növbəsində belə infeksiyalara yoluxmuş insanların rəsmi qeydiyyata alınmasını çətinləşdirir. Hazırda Azərbaycanda koronavirusun "Eris" variantının yayılması barədə rəsmi məlumat yoxdur. Vətəndaşlarımıza bildirmək istərdim ki, bütün respirator infeksiyalardan qorunma tədbirləri eynidir. Sanitar və gigiyenik qaydalara riayət edilməsi vacibdir. Bura sosial məsafənin gözlənilməsi, xəstə insanın ev şəraitində izlənilməsi, əl təmizliyi kimi qaydalar və s. aiddir".

"Artıq bir neçə aydır ki, COVİD-19-un alt variantı olan EG.5 - elmi ədəbiyyatda həm də "Eris" kimi tanınan virus son zamanlar bütün dünyada sürətlə yayılmaqdadır. Xüsusilə ABŞ, Çin, Böyük Britaniya və Avropanın digər ölkələrində yeni yoluxmalara və yoluxma saylarında artıma səbəb olub".

Bunu isə **TƏBİB-in Yoluxucu xəstəliklər və infeksion nəzarətin təşkili şöbəsinin müdiri Nəzrin Mustafayeva APA-ya açıqlamasında deyib. O bildirib ki, bu hal ilk dəfə deyil, daha öncə də COVİD-19-un digər ştamlarında qeydə alınıb.**

"Tendensiya onu göstərir ki, hər bir yeni yaranmış ştamm özündən öncəki ştamdan daha yüngül simptomlara malik olur. Lakin yeni ştamlarların yoluxduruculuq qabiliyyəti əvvəlkilərdən yüksək olması ilə fərqlənir. Bu isə qısa zamanda kütləvi yoluxmalara səbəb olur.

Hazırda ölkəmizdə COVİD-19 xəstəliyinin yeni ştamına yoluxma hallarına rast gəlinməyib. İnsanların böyük əksəriyyəti COVİD-19 xəstəliyini artıq keçirib və sağalıb. Ölkədə peyvəndlənmə faizi də qənaətbəxş hesab ediləcək səviyyədədir.

COVİD-19-un alt variantı olan EG.5-ə qarşı xüsusi peyvənd növünün hazırlanması və xüsusi peyvəndlənmə prosesinin başlanılması barədə beynəlxalq protokollarda tövsiyələr mövcud deyil. Hər zaman olduğu kimi, COVİD-19-un bütün ştamlarına qarşı risk qrupuna daxil olan şəxslər daha diqqətli olmalıdırlar. Risk qrupuna yanaşı və xroniki xəstəlikləri olanlar, peyvənd olunmayan şəxslər daxildir", - şöbə müdiri qeyd edib.

Yeri gəlmişkən, Hindistanın cənubundakı Kerala ştatında "Nipah" virusuna yoluxanların sayı artır. Xarici KİV xəbər verir ki, bu ölümcül xəstəliyin müalicəsi yoxdur. Rəsmi olaraq "Nipah" virusundan biri uşaq olmaqla, beş ölüm halı qeydə alınıb. Hökumət ştatda məktəbləri və ofisləri bağlayıb, 9 kənddə mühafizə zonası elan edilib. Ştatın baş naziri Pinarayi Vajayan bildirib ki, virus 2 milyon insanın yaşadığı Kojikode şəhərində aşkarlanıb. Nazir sakinləri qorxmamağa, ehtiyatlı olmağa çağırıb. Qeyd edək ki, virus yoluxmuş şəxslə fiziki təmas zamanı da ötürülür. Xatırladaq ki, virus ilk dəfə 1999-cu ildə Malayziyada aşkarlanıb, o zaman 300-ə yaxın insana yoluxub, onlardan 100-dən çoxu dünyasını dəyişib. Bu, 2018-ci ildən bəri Keralada "Nipah" virusunun dördüncü yayılmasıdır.

❑ **Afaq MİRAYİQ,**
"Yeni Müsavat"

YENİ MÜSAVAT

Son səhifə

N 166 (8302) 19 sentyabr 2023

Liviyada bir şəhər yer üzündən tamamilə silindi

Liviya Derna şəhərinin qasırğaya görə demək olar ki, yoxa çıxdığını etiraf edib. "Daniel" qasırğası və Liviyanın şimalını vuran güclü yağışlar Aralıq dənizi sahilində yerləşən Derna şəhərini demək olar ki, məhv edib. İnsan itkisinin sayı on mini ötüb.



Qasırğanın özü ilə gətirdiyi külli miqdarda yağıntı quru çayların yataqlarını doldurараq iki bəndin sıradan çıxmasına səbəb olub. Nəticədə 80 minə yaxın əhalisi olan bir şəhəri dəniz yuyub aparıb. Əvvəlcə səlahiyyətlilər 3 min vətəndaşın öldüyünü açıqlayıblar, daha sonra isə bu rəqəm 11 minə çatıb. Derna merinin sözlərinə görə, daşqın zamanı ölənlərin sayının 20 min nəfərə çatması mümkündür.

İndi demək olar ki, tamamilə dağılmış şəhərdə işıq və su təchizatı mövcud deyil, xilasedicilər ölənlərin cəsədlərini toplayır, meriya isə epidemiya riski yaratdığından ölüləri suyun yaxınlığındakı kütləvi məzarlıqlarda basdırmamağa çağırır. Peyk görüntüləri Derna şəhərinin yer səthinin xəritəsindən praktiki olaraq yoxa çıxdığını təsdiqləyir.

Liviya hakimiyyəti şəhərin infrastrukturunun onilliklər ərzində təmir olunmaması və bunun nəhəng dağıntılara səbəb olması faktına görə məsul olan şəxsləri müəyyən etməyə çalışır - fəlakətin şahidlərinin sözlərinə görə, su bütün yaşayış məntəqələrini yuyub aparıb.



Rusiyada boşanmaların sayı sürətlə artır

Rusiyada boşanmaların sayı ardıcıl üç ildir ki, artır. 2020-ci ildə 564 033, 2021-ci ildə isə artıq 644 207 cütlük boşanıb. Ötən 2022-ci ildə 683 111 ailə boşanmaq qərarına gəlib. Amma 2023-cü il bu rekordu qıra bilər. Belə ki, ilk 7 ayda təxminən 400 min boşanma qeydə alınıb. Bu barədə Rosstat rəsmi məlumat yayıb. Sorğulara əsasən, rusiyalıların 33%-i yoxsulluq, 15%-i qarşılıqlı anlaşmanın olmaması, 14%-i isə xəyanət və qısqanclıq ucbatından boşanır.

7 yaşlı uşaq qardaşını qaçırılmaqdan xilas edib

Mançesterdə mağazada bir kişi üç yaşlı uşağı qaçırmağa cəhd edib, lakin böyük qardaşı onu xilas edib. Ana və iki uşağı Mançesterdə ticarət mərkəzində alış-verişə gedib. Qadın kassada pul ödəyərkən yeddi və üç yaşlı iki oğlu onun yanında dayanıb. Qəflətən yaşlı bir kişi oğlanlardan birinə yaxınlaşaraq onu kobudcasına tutub aparmağa çalışıb. Uşağın böyük qardaşı oğurluğun qarşısını ala bilib. Yeddi yaşlı uşaq üç yaşlı qardaşının ayağından yapışaraq qışqırıb.

Hadisəni törədən şəxs həbs edilib. Onun 60 yaşlı yerli sakin olduğu məlum olub. Adam oğurluğuna cəhdə görə məhkəmə onu 3 il 2 ay müddətinə azadlıqdan məhrum edib.



Dünyada şampan şərabına tələb azalıb

Ən böyük şampan istehsalçısı "Moet Hennessy - Louis Vuitton" (LVMH) 2021-2022-ci illərdə populyarlığının sürətli artımından sonra 2022-ci ildə öz məhsullarına tələbatın zəiflədiyini bildirib. Bunu konsernin şərab və spirtli içkilər bölməsinin rəhbəri Filip Şaus deyib. Onun sözlərinə görə, əvvəllər uzun karantinlərdən sonra "əyləncəyə hərislik" var idi. Lakin bu il ev şəraitində istehlak üçün şampan şərabına tələbat azalıb.

Eyni zamanda gecə klubları və restoranlarda, məsələn, Yunan adalarında və İtaliya Rivyerasında tələb yüksək olaraq qalır. Qeyd edək ki, "Dom Perignon" da daxil olmaqla, şampan brendləri LVMH-nin gəlirinin 7,5%-ni təşkil edir. Bununla belə, bölmənin satışları ABŞ-dəki tənəzzül səbəbindən ilin ilk yarısında 3% azalıb. Proqnozlara görə, 2023-cü ildə 314 milyon şüşə şampan satılacaq ki, bu da əvvəlki illə müqayisədə 3,7% azdır.

Gündüz yuxulu olmanın səbəbi

Mütəxəssislər gündüz yuxusunun ümumi səbəbləri barədə maraqlı açıqlamalar verib. Onların fikrincə bir adam yatarkən xoruldasa, gecə 8 saatlıq yuxudan sonra da gündüz özünü yuxulu hiss edəcək.

Çünki bu zaman hiperomniya baş verə bilər və xoruldama obstruktiv yuxu apne sindromu (on saniyəlik qısamüddətli nəfəs kəsmə) ilə müşayiət edilir. Bu da insanın beyninin oksigen çatışmazlığından "oyanmasına" gətirib çıxarır. Belə halda insan orqanizminə lazım olacaq qədər yuxunu ala bilmir. Bundan başqa yuxuda əzaları hərəkət etdirmək - narahat ayaq sindromu da yuxunun keyfiyyətinə təsir göstərir.

Gündüz yuxulu olmanın başqa səbəbləri də ola bilər. Buna misal kimi orqanizimdə dəmir və D və B vitaminlərinin çatışmazlığını da göstərmək olar. Mütəxəssislər bu sindromun üç ay ərzində keçmədiyi təqdirdə mütləq həkimə müraciət etmək lazım olduğunu da açıqlayıblar.

Bunları bilirsizmi?

*** İnsanların omba sümüyü betondan daha möhkəmdir.**

*** Ağcaqanad əleyhinə spreylər əslində onların insanlara yaxınlaşmasını əngəlləmir. Sadəcə olaraq, ağcaqanadların hissiyyatını bağlayır və bir növ insanları gizləyir.**

*** "Süd yolu" qalaktikasında 400 milyarddan çox ulduz olduğu düşünülür.**

*** Bir insan gündə ən az 500 litr oksigen istifadə edir.**

*** Hər gün 275 milyona yaxın yeni ulduz yaranır.**

*** Gözlərin hər biri 130 milyondan çox görmə sinir hüceyrəsindən ibarətdir. Hər hüceyrənin içində isə 100 trilyon atom var. Bu rəqəmlər isə ümumilikdə dünyadakı bütün ulduzların sayından daha çoxdur.**

*** Hazırda dəniz aləmində 180-nə yaxın balıq növü işıq görmədən yaşayır.**

*** Əgər bir sözü xatırlamaqda çətinlik çəksəniz, yumruğunuzu sıxın. O zaman beyinin fəaliyyəti daha da artır və yaddaşı işə salmağa kömək edir.**

*** 600 kiloqramlıq bir balinanın ürək damarının içinə bir insan yerləşə bilər.**

*** Bir insan yaşadığı müddətdə ortalama 23 min dəfə göz qırpır, 100 min dəfə ürəyi döyünər, 23 min dəfə nəfəs alar, qaraciyərləri ilə 1500 litr qan süzülər, mədəsi ilə 2 litr asit turşusu istehsal edər.**



İstədiyini ye və arıqla: alimlər beyində "sehrli düymə" aşkarlayıblar

İstədiyini ye və arıqla - bu, qeyri-real səslənir, lakin alimlər bunun artıq mümkün ola biləcəyini elan ediblər. Elm adamlarının bu barədə araşdırmalarının nəticələri "IFLScience" jurnalında dərc olunub. Məqalədə qeyd olunub ki, siçanlar üzərində aparılan təcrübə zamanı beyində rasionu dəyişdirmədən əlavə çəkini atmağa kömək edə biləcək bir növ "düymə" aşkar edilib. Eyni təsirlər insanlarda müşahidə olunarsa, bu, standart pəhrizlərlə əlaqəli aclıq və dietik məhdudiyyətlər olmadan çəki idarə etməyə imkan verən yeni müalicələrə səbəb ola bilər.

Bədənimiz qidaları emal edir və beyinin lateral hipotalamus (LHA) kimi tanınan sahəsi ətrafında enerji mərkəzləri yaradır. Yağ toxuması adlandırılan bədənimizin yağ ehtiyatlarına siqnal göndərən də məhz odur. Yeni araşdırmada elm adamları siçanlar üzərində təcrübələr vasitəsilə bu prosesin necə getdiyini öyrənməyə çalışıblar. Məlum olub ki, qida ilə əlaqədar kökələn siçanların LHA sahəsində GABRA5- müsbət neyronların fəaliyyəti yavaşlayıb.

Elm adamları bunu yoxlamaq üçün kimyəvi maddələrlə GABRA5 neyronlarının fəaliyyətini daha da yavaşladıblar. Nəticədə gəmiricilərin çəkisi artmağa davam edib. Bu tapıntı onları əks-effekt axtarmağa ruhlandırıb, alimlər GABRA5 neyronlarını aktivləşdirmək qərarına gəlirlər. Bunun üçün isə təsadüf nəticəsində "Neurobiogen biotexnoloji" şirkətinin tamamilə başqa məqsədlə hazırladığı və neyronları aktivləşdirən dərmandan (KDS2010) istifadə ediblər. Nəticədə preparatın təsirindən kök siçanlar qida qəbulunu azaltmadan arıqlamağa başlayıblar. Beləliklə, tədqiqatın müəllifləri rasionu dəyişmədən arıqlamağa imkan verən "düyməni" tapa bildiklərini elan ediblər.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Sifariş: 2434
Lisenziya N: B 114
SAYI: 1.500

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəllifərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.